www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30-31 avqust 2014-cü il Şənbə № 217 (5926) Qiyməti 40 qəpik

**Xəbər**

## Qubadlının işğalından 21 il keçir

yazısı səh.4-də

**Gündəm**

### Prezident İlham Əliyevdən sərt Qarabağ bəyanatı



"Azərbaycan ərazi bütövlüyünü tezliklə bərpa edəcək; düşmənə layiqli cavabın verilməsi Ermənistanda ciddi təşviş yaradıb"

yazısı səh.2-də

### Deputatın polis rəisinə qarşı ittihamlarına DİN-dən cavab gəldi

yazısı səh.4-də

### Müsavat başqanlığına namizədlər...

yazısı səh.5-də

### Türkiyə ilə birgə Rusiya təhlükəsinə qarşı

yazısı səh.6-da

### Vüsal Şilderin anası sensasiyalı müraciət yaydı

yazısı səh.15-də

### "Təzəpir"də yas mərasimlərində yenə də yemək-içmək verilir

yazısı səh.12-də

### Türkiyənin yeni hökumətinin tərkibi açıqlandı

yazısı səh.2-də

### Polis "Hafka"nın cinayət törədən cangüdənlərinin izinə düşüb

yazısı səh.14-də

### Nazirlik Rusiyaya daşınan məhsullarımız haqda açıqlama verdi

yazısı səh.12-də

### Əməkdaşımız məşhur İvanovka kəndinin problemlərindən yazır

yazısı səh.15-də

### "Qarabağ"ın uğuru Qarabağın uğurudur

yazısı səh.13-də

### Tovuzda avtoqəzada 2 qardaş öldü

yazısı səh.2-də

# Rusiya təlaş içərisindədir

# ABŞ RUSİYANI ÇÖKDÜRMƏK ÜÇÜN NƏ QƏDƏR XƏRCLƏYƏ BİLƏR

NATO Rusiya sərhədlərində çevik qüvvələr yerləşdirəcək, yoxsa ...; "Şər imperiyası" yenidən dirçəlməyə can atır; ölkəmizdəki QHT repressiyaları ilə Rusiyanın hansı əlaqəsi var...




yazısı səh.8-də

# "Məni həbs edə bilərlər" - Qubad İbadoğlu

"QHT işi"nin yeni sensasion tərəfləri üzə çıxır; iqtisadçı alim iki gün öncə prokurorluqda 6 saat dindirilib; "Heç bir şərtlə Müsavat başqanlığı namizədliyindən geri çəkilmək fikrim yoxdur"

yazısı səh. 8 və 9-da



### Ramiz Mehdiyev KİV rəhbərləri ilə birgə müşavirə keçirdi

yazısı səh.9-da



*Novella Cəfəroğlu:*

### "Layihələrimiz bağlanıb, çox pis vəziyyətdəyik, məvacib verə bilmirik"

yazısı səh.11-də



Seymur Həzi

### AXCP funksioneri xuliqanlıq ittihamı ilə saxlanıldı

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014



# İlham Əliyevdən sərt Qarabağ bəyanatı

## "Düşmənə layiqli cavabın verilməsi Ermənistanda ciddi təşviş yaradıb"

**Cəbhə xəttində gərginliyin başlamasından ikinci dəfə cəbhə bölgəsinə səfər edən prezident Ali Baş Komandan İlham Əliyevin bu gəlişi də sərt bəyanatları ilə yadda qaldı. Ölkə başçısı cəbhə xəttində Azərbaycan ordusunun layiqli cavabından qarşı tərəfin təşvişə düşdüyünü vurğulayıb.**

ANS TV-nin məlumatına görə, Azərbaycan ərazi bütövlüyünü tezliklə bərpa edəcək. Prezident İlham Əliyev Beyləqanda ictimaiyyət nümayəndələri və gənclərlə görüşündə deyib ki, işğalçı dövlətin atəşkəsi pozması nəticəsində düşmənə layiqli cavab verilməsi Ermənistanda ciddi təşviş yaradıb. Son hadisələr Ermənistandan əhalinin tərk etmək prosesini sürətləndirib.

Dövlət başçısı Dağlıq Qarabağ münaqişəsilə bağlı mövcud vəziyyətdən danışarkən işğal olunmuş torpaqlarımızın tez bir zamanda azad ediləcəyindən əminliyini vurğulayıb. Azərbaycanın artan iqtisadi, hərbi və digər sahələrdə Ermənistanla müqayisəyə gəlməz gücü buna tam imkan verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözlərinə görə, virtual cəhətdən biz güclüyük, üstünük bütün sahələrdə özünü biruzə verir.

İyulun sonu avqustun əvvəlində qoşunların təmas xəttində yaranan gərginlikdən sonra bu Ali Baş Komandanın cəbhə bölgəsinə olan ikinci səfəridir. Bundan əvvəl Ağdamda ön cəbhədə olan dövlət başçısı hərbçilərlə görüşmüş, Müdafiə Nazirliyinin yüksək rütbəli şəxslərinin iştirakı ilə operatvi müşavirə keçirmişdi.

# Bakıda Türkiyənin Zəfər bayramı qeyd edilib

**Avqustun 29-da Türkiyənin Azərbaycandakı səfirliyində "Zəfər bayramı və Türk Silahlı Qüvvələri günü" münasibətilə rəsmi qəbul təşkil edilib. AzərTAc xəbər verir ki, qəbulda səfirliyin və Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşeliyinin əməkdaşları, dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, iş adamları, xarici ölkələrin Bakıdakı səfirləri və media təmsilçiləri iştirak ediblər.**

Rəsmi qəbul Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun tarixə nəzər salaraq türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfər qazandığını bildirib. O qeyd edib ki, bu böyük zəfər türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsidir və bütün bunların nəticəsi olaraq bugünkü Türkiyə dövləti meydana gəlib.

Tədbirdə çıxış edən Türkiyənin Azərbaycandakı hərbi attaşesi, briqada generalı Hasan Nevzat Taşdeler türk xalqının istiqlaliyyət uğrunda apardığı şərəfli mübarizə yolundan danışıb. Diqqətə çatdırıb ki, böyük öndər Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipini rəhbər tutan Türkiyə hərbçiləri dünyanın müxtəlif bölgələrində sülhməramlı missiyanı yerinə yetirirlər. Türkiyə ordusu bundan sonra da dünyada sülhün bərqərar olması istiqamətində əzmlə mübarizə aparacaq.

Tədbir konsert proqramı ilə davam edib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# AXCP funksioneri saxlanıldı

## Seymur Həzi xuliqanlıqda ittiham olunur

**Avqustun 29-da günorta saatlarında AXCP Rəyasət Heyətinin üzvü, "Azərbaycan saatı" proqramının aparıcısı Seymur Həzi Abşeron rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həbs edilib, bu barədə vəkil Elton Quliyevə xəbər verməyə imkan tapıb. O, Cinayət Məcəlləsinin 221.1 maddəsi (xuliqanlıq) ilə təqsirli bilinir.**



Elton Quliyev musavat.com-a açıqlamasında AXCP üzvünün həbs edilmə ehtimalının daha yüksək olduğunu söyləyib: "Bu maddə irəli sürülübsə, həbs olunma ehtimalı daha yüksəkdir".

**Vəkil axşam saatlarında polis idarəsindən çıxıb və musavat.com-a açıqlama verib:** "Seymur Həzi evdən şəhərə gələrkən, Ceyranbatanda tanımadığı şəxs ona yaxınlaşıb, facebookda yazdığı mesaja nə üçün cavab vermədiyini soruşub. Ardınca cavab gözləmədən hücum edərək onu vurub. Seymur özünü müdafiə etmək istəyib. Bu zaman onun əlində plastik su qabı olub. Məcbur olaraq su qabını həmin adama tərəf atıb. Onu həbs edənlər guya onun şüşə butulka ilə bir adamın başına vurduğunu deyiblər. Hazırda istintaq işləri aparılır".

Vəkil qeyd edib ki, Seymur Həzi 221.3 maddəsi (silah və silah kimi istifadə olunan əşya tətbiq etməklə xuliqanlıq) ilə şübhəli şəxs qismində saxlanılıb. Avqustun 30-da AXCP üzvünə qarşı ittiham elan edilərək, barəsində həbs-qətimkan tədbirinin seçiləcəyi gözlənilir.

❑ **Cavanşir ABBASLI**



# Fikrət Məmmədov vətəndaşlarla görüşdü

**Ədliyyə naziri Fikrət Məmmədov Şəmkirdə Qazax, Ağstafa, Tovuz, Gədəbəy və Şəmkir rayonlarında yaşayan vətəndaşların qəbulunu keçirib.**

Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, vətəndaşların rahatlığının təmin edilməsi üçün nazirin qəbuluna yazılış qabaqcadan başlanıb, nazirliyin elektron xidmətlər portalında xüsusi olaraq birbaşa yazılmaq imkanı yaradılıb.

Gün ərzində aparılmış qəbul zamanı ədliyyə və məhkəmə fəaliyyəti, habelə digər müxtəlif məsələlər ilə bağlı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Eyni zamanda ədliyyə və məhkəmə fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərə baxılıb, onların araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunub.

Qəbula gələn vətəndaşlar əhaliyə göstərilən qayğılı münasibətə, bölgələrdə qəbulların silsilə xarakter almasına, regionlarda yüksək sosial-iqtisadi şəraitin yaradılmasına görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

**Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarına baş çəkərək, hakimlər və ədliyyə işçiləri ilə görüşüb, onların fəaliyyəti və iş şəraiti ilə tanış olub, problemlərlə maraqlanmış, vətəndaş-məmur münasibətlərinin ölkə prezidentinin tələblərinə uyğun olaraq sağlam zəmində qurulması, etik davranış qaydalarına ciddi riayət olunması, korrupsiyaya şərait yaradan hallara yol verilməməsi və digər aidiyyəti tövsiyə və tapşırıqlarını verib.**

# Vəkillər bu gün həbsdəki hüquq müdafiəçiləri ilə görüşəcəklər

**Həbsdə olan hüquq müdafiəçilərinin - Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus, həyat yoldaşı Arif Yunus, hüquq müdafiəçisi İntiqam Əliyev və İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun istintaqında yenilik yoxdur. Vəkil Anar Qasımlı və Fariz Namazlı onların durumunun normal olduğunu və bu gün müvəkkilləri ilə görüşəcəklərini bildirdilər.**

**İntiqam Əliyevin vəkili Anar Qasımlının** sözlərinə görə, onunla bağlı hazırda hər hansı yenilik yoxdur: "Onunla avqustun 30-da görüşəcəyəm. Görüşdən sonra daha ətraflı məlumatları sizə çatdıraram. Ailəsindən heç kimlə görüşə icazə verilməyib. Ancaq yemək göndərilir".

Atası haqqında məlumat verən **İntiqam Əliyevin qızı Nərmin Kamil** isə həftədə iki dəfə telefon əlaqəsi saxladıqlarını və 3-4 dəqiqə danışa bildiklərini dedi: "Həm vəkilləri, həm də özü səhhətinin normal olduğunu deyir. Hələ ki, görüşə bilməmişik. Həftədə iki dəfə 2-3 dəqiqə telefonla danışmağa icazə verirlər".

Siyasi partiyaların və ictimai qurumların yaratdıqları müdafiə komitəsinin fəaliyyətinə gəlincə, **Birləşmiş Hüquq Müdafiə Mərkəzinin sədri Mirmahmud Mirəlioğlu** bildirdi ki, siyasi məhbusların hüquqlarını müdafiəsi istiqamətində komitə rolunu oynamırıq, bu istiqamətdə siyasi partiyaların işlərini əlaqələndiririk, vəkillərlə əlaqə saxlayırıq, onlara dəstək veririk. Bizim işlərimiz qarşıdadır. Qarşıda məhkəmələr olacaq, bu məhkəmələrdə iştirak edəcəyik. Partiya liderlərinin siyasi məhbuslarla görüşünə gəlincə, Mirmahmud Mirəlioğlu bildirdi ki, bu praktik olaraq mümkün deyil: "Azərbaycan reallıqlarına görə, bu mümkün deyil. Məndə olan məlumata görə, hətta bu insanların yaxınlarına da görüş üçün icazə verməyiblər. Bu məlumatı dəqiqləşdirib açıqlama da verəcəyik. Hətta təşkilatın üzvlərinə də görüşə icazə verməyiblər. Belə halda siyasi partiyaların görüşə getməsi ümumiyyətlə mümkünsüzdür. "

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycanlı yazar mükafat aldı

**Qırğız Respublikasının prezidenti Almazbek Atambəyov yazıçı-dramaturq Əmir Pəhləvanı ölkənin yüksək mükafatı sayılan "Aykol Manas" mükafatı ilə təltif edib. Mükafat bu günlərdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyində laureata təqdim olunub.**

Əmir Pəhləvan (Hacıyev) 1959-cu ildə Şahbuzun Mahmudoba kəndində anadan olub. 1985-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1990-cı ildə Ümumittifaq Teatr Yaradıcılıq İstehsalat Birliyinin köməyi ilə "İlham" adlı mədəniyyət qəzeti təsis edib. 1995-ci ildə isə "Step" LTD kino şirkətini yaradıb. Şirkətdə istehsal olunan bədii və sənədli filmlərin hamısının ssenari müəllifi, bəzilərinin həm də rejissoru özüdür.

Əmir Pəhləvan Azərbaycan, Türkiyə, ABŞ və Almaniyada çapdan çıxan 10-dan çox kitabın müəllifidir.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Türkiyənin yeni hökumətinin tərkibi açıqlandı

**Türkiyənin yeni baş naziri Əhməd Davudoğlu ölkənin 62-ci hökumətinin tərkibini açıqlayıb. APA TV-nin məlumatına görə, kabineti açıqlamazdan əvvəl Çankaya köşkünə gedən baş nazir burada prezident Rəcəb Tayyib Ərdoğanla təkbətək görüş keçirib. Daha sonra baş nazir media qarşısına keçərək kabinetdə yer alan nazirlərin adlarını açıqlayıb.**

Yeni kabinetdə xarici işlər naziri vəzifəsinə Avropa Birliyi ilə münasibətlərdən məsul naziri Mövlud Çavuşoğlu təyin olunub. Çavuşoğlunu Avropa Birliyindən məsul nazir postunda Volkan Bozqır əvəzləyəcək. Yeni hökumətdə gömrük və ticarət naziri postuna Nurəddin Canıklı təyin olunub.

Hökumətdə daha iki dəyişiklik olub. Ərdoğan hökumətində baş nazirin müavinləri olan Əmrullah İşlər və Bəşir Atalay yeni kabinetdə yer almayıb. Davudoğlu hökumətində onları Yalçın Akdoğan və Numan Kurtulmuş əvəzləyəcək...

Azərbaycan prezidenti İlham Əliyev Türkiyənin baş naziri Əhməd Davudoğluna zəng edib.

APA-nın Prezidentin mətbuat xidmətinə istinadən məlumatina görə, dövlət başçısı Əhməd Davudoğlunu Türkiyənin yeni baş naziri təyin edilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Əhməd Davudoğlu təbrikə və diqqətə görə dövlət başçısına minnətdarlığını bildirib.

**Telefon söhbəti zamanı prezident İlham Əliyev və baş nazir Əhməd Davudoğlu Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər.**

# Səfər Əbiyev "Bakıdayam" deyir

**Azərbaycanın sabiq müdafiə naziri, general-polkovnik Səfər Əbiyevin ölkəni tərk etməsi haqda mövzu yenidən gündəmə gəlib. Bəzi KİV-lər eks-nazirin ölkəni tərk etdiyini iddia edirlər.**

AzNews.az xəbər verir ki, modern.az saytı xəbəri dəqiqləşdirmək üçün Səfər Əbiyevin özü ilə əlaqə saxlayıb. Sabiq müdafiə naziri yayılan məlumatları təkzib edib.

"Bu cür xəbərləri ilk dəfə deyil yayırlar. Mən Bakıda, öz evimdəyəm",-deyə eks-nazir qısaca olaraq bildirib.

# Bakıda iki qadın kişini soydu

**Bakıda soyğunçuluq hadisəsi baş verib. Yasamal rayonu Şərifzadə küçəsində Bakı şəhər sakini Elmir Şirinovun mağazaların birində pul xırdaladığını görən 2 qadın onun ardınca düşərək pul kisəsini oğurlayıb qaçıblar. Qadınların dalınca qacan Şirinov onlara cata bilməsə də, yaxınlıqda olan Çevik Polis Alayının əməkdaşları onları yaxalayıblar. Sumqayıt şəhər sakini Natiqə Baxıyeva və Bakı şəhər sakini Nərgiz Ağaməmmədova Yasamal RPİ 29-cu polis bölməsinə təhvil veriliblər.**

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Hakimiyyət qaydasız oynayır"

## Cəmil Həsənli: "Yaxamızı kənara çəkə bilmərik ki, biz alimik, yazıçıyıq, kinodramaturquq, siyasətlə məşğul ola bilmərik"

**Milli Şuranın sədri, professor Cəmil Həsənli ilə müsahibənin sonuncu 3-cü hissəsini təqdim edirik.**

*(əvvəli ötən saylarda)*

**C.Həsənli:**

- Bir anlığa fikirləşək: İntiqam Əliyev niyə həbs olundu?

***- Niyə?***

- Bir tərəfdən razılaşdırılmış siyahıya imza atmışdı. Bu, məsələnin görünən tərəfidir. Amma onun görünməyən daha maraqlı tərəfi var. 2010-cu il parlament seçkilərindən Avropa Məhkəməsinə verilən şikayətlərin böyük bir hissəsinin vəkili İntiqam bəydir. Həmin şikayətlər isə baxılma mərhələsinə gəlib çatıb. 76 ərizədən 51-i məhkəmə araşdırması üçün qəbul olunub. Bu 51 ərizənin böyük hissəsinin vəkili İntiqam bəydir. Belə vəziyyətdə hökumət nə edir? Həmin ərizə sahiblərini çağırıb, bir-bir söhbət edir ki, bəli, biz qəbul edirik ki, sizin haqqınız pozulub və bunun müqabilində maddi kompensasiya ödəyirik sizə. Ucdantutma yeddi min beş yüz avro. Siz isə ərizənizi geri götürün. Ərizəçilər ehtiyac içində olsa da, ancaq hökumət əmin deyil ki, hamı bu təkliflə razılaşıb ərizəsini geri götürəcək. Ona görə vəkili həbs edirlər ki, kommunikasiya mərhələsi dayansın. Həbsə heç bir aidiyyəti olmayan məhkəmə iddialarını və yazışmaları isə İntiqam bəyin ofisindən müsadirə etdilər. Çünki 51 iş haqqında beynəlxalq qərar qəbul olunsa, bu o deməkdir ki, parlamentin 40 faizi saxtadır. Deməli, bu halda parlamentin legitimliyi şübhə altına düşür. Prosesin qarşısını almaq üçün bəri başdan vəkili təcrid etmək lazım idi.

***- Həbsdəkilərin azad edilməsi üçün kütləvi aksiyalar keçirəcəksinizmi?***

- Bu qərarı mən tək vermirəm. Bunu biz gərək müzakirə edək. Avqust ayında adamların çoxu tətildədir. Milli Şuranın üzvlərinin də xeyli hissəsi şəhərdə deyil. Kimisi xaricə gedib, kimisi bağa, kimisi rayonlardadır. Sentyabrın 15-nə, şəhərdə fəal həyat başlayana qədər bu belə olacaqdır. Amma əlbəttə bu adamları müdafiə etmək üçün bütün qanuni vasitələrdən, o cümlədən aksiyalardan da istifadə olunacaq.

Mən siyasi məhbus məsələsi ilə bağlı nüansı da vurğulamaq istəyirəm. Ölkəmizdə nüfuzlu din xadimləri, islam üləmaları da saxta ittihamlarla həbsə alınıblar. Məsələn, Hacı Taleh müstəqillik dövrünün mükəmməl ilahiyyat təhsil almış, maraqlı bir islam üləmasıdır. Hər kəs bilir ki, narkotikdən uzaq adamdır. Amma narkotik ittihamı ilə tutublar. Bu qədər Həccə gedən, namaz qılmaqdan alnında möhürün izləri qalan, Hacı titulunu adı ilə yanaşı az qala familiyasının qarşısında da yazan Beytülhəqq ziyarətçilərimiz var. Niyə bir 10 nəfər möminimiz çıxıb Hacı Talehə, Hacı Abgülə, Hacı Mövsümə atılan şərə, böhtana, zülmə etiraz etmirlər. Axı Beytülhəqqə tapınanlar yaxşı bilirlər ki, zülmü görüb ona etiraz etməmək zalımın əməllərinə şərik olmaqdır.

***- Niyə demokratiya paytaxtları Azərbaycandakı son həbslərə kəskin reaksiya vermir? Yoxsa vəziyyət o dərəcədə pisdir ki, hətta kəskin münasibət də sönük görünür?***

- Bizim düşüncə tərzimiz bir az fərqlidir. Məsələn, deyək ki, Hollandiyada buna bənzər bir şey baş versə və Böyük Britaniya Xarici İşlər Nazirliyi bəyanat verib ondan narahat olduğunu izhar etsə, o sahəyə baxan yetkili həmin axşam istefa verər. Gördünüz, ofşor zonalarda bəzi vəsaitlər aşkarlananda normal ölkələrin çoxunda həmin o vəsaitlərdə adı keçən adamlar səssiz-küysüz özləri istefa verdilər. Əgər bu həbslərlə bağlı Fransa, Almaniya, Britaniya, İsveç Xarici İşlər Nazirlikləri narahatlıqlarını bildirib, şoka düşdüklərini ifadə edirlərsə, bu, kifayət qədər ciddi reaksiyadır. Əgər normal cəmiyyət yaradırıqsa, normal cəmiyyəti idarə edən hakimiyyətlər belə əməllərindən utanmalıdırlar. Sadəcə olaraq Azərbaycanda qanunsuzluğun miqyası o qədər hüdudsuz və bu qanunsuzluq nəticəsində mənimsənilən vəsaitlərin həcmi o qədər böyükdür ki, oğurlanan sərvət asanlıqla sərvətkeşə utanc hissini unutdurur.

***- Hakimiyyət bu həbslərlə nə təklif edir - yeni oyun qaydaları, yoxsa...***

- Yox, bu, qaydasız oyundur.

***- Sizi də həbs edə bilərlərmi? Təhdid varmı?***

- Əlbəttə edə bilərlər. Leyla xanımın həbsindən sonra hər şey ola bilər. Amma bundan qorxmaq lazım deyil. Hakimiyyət həbsləri kütləviləşdirməklə onu adiləşdirdi. Həbsindən bir gün əvvəl Rəsul Cəfərov Leyla Yunusun müdafiə komitəsinin toplantısına gəlmişdi və sabah həbs olunacağı ilə sadəcə olaraq məzələnirdi. Anar Məmmədli özünə yox, həbs evindən kənardakılara dözüm arzulayır. İlqar, Tofiq, Yadigar, Taleh, Qurban, Rəşadət, Rəşad, Zaur, Üzeyir, İlkin, Pərviz və bu qəbildən olan intellektual məhbuslar öz iradələri ilə həbsin qorxunc kabusunu sındırdılar. Görünür Azərbaycanda yaşayırsansa, belə şeyləri adi həyat hadisəsi kimi qəbul etməlisən. Mənim problemim isə yalnız həbs deyil. (Gülür.). Amma, bütövlükdə hələ davam edən bu həbslərdə əsas hədəflərdən biri Milli Şuradır. Kimi ələ ala bilmirlərsə, sındıra bilmirlərsə, onda saxta ittihamlar, yalançı şahidlər, üzə durmalar, narkotik əməliyyatı işə düşür. Bir görün Milli Şuradan nə qədər adam həbsdədir. Köhnə məhbuslara Şuranın rəhbərliyində təmsil olunan Leyla xanım da əlavə edildi. Xətai rayon məhkəməsi MŞ-nın sədr aparatının üzvü, seçkilər vaxtı mənim seçki qərargahımın mətbuat xidməti olmuş Oqtay Gülalıyevin yetkinlik yaşına çatmamış oğlu Əlinin işinə ilkin baxış keçirmişdir. Bu yeniyetmə ötən il bıcaqlanmışdı, xəsarət nəticəsində üzərində cərrahiyə əməliyyatı keçirildi. Hadisə baş verəndə zərərçəkmiş kimi qəbul olunmuşdu. İndi isə müttəhim qismində məhkəməyə verilir. Səbəb birdir. Oqtay bəyi MŞ-dan çəkindirə bilmədilər, əvəzində zərərçəkmişi müttəhimə çevirə bildilər. Gələn həftə daxili işlər nazirinin ərizəsi əsasında Milli Şuranın KM-nin üzvü Eldəniz Quliyevə qarşı məhkəmə araşdırması başlayır. Milli Şura üzvü Natiq Ədilovun qardaşı Murad bəyi narkotika ittihamı ilə məhz Natiq bəyə görə həbs ediblər. Bu gün Milli Şuranın üzvü Seymur Həzini saxlayıblar.

***- Cəmil bəy, həyatınızı bundan sonra necə davam etdirməyi düşünürsünüz?***

- Mənim həyatım daha çox elmə köklənib. Siyasət isə həyatımın bir hissəsidir. Həm də kiçik bir hissəsi. Ona görə də mən Allaha şükür edirəm ki, məni bağlandığım bir sahədən heç vaxt ayırmadı. Hətta prezident seçkiləri dövründə də mən nəsə yazmışam. Mənim öz həyat normam var və bu, mənim peşəmdir. Mən Bakıdayamsa heç olmasa 1-2 saat öz sahəmlə məşğul olmalıyam. Sizə hədiyyə gətirdiyim "Azərbaycanda milli məsələ: Siyasi rəhbərlik və ziyalılar" kitabım üçün Harvard kimi böyük bir universitetdən təklif aldım ki, onlar bu kitabı "Xruşşov baharı və Sovet Azərbaycanında milli özünüdərk" (Khrushchev's Thaw and National Identity in Soviet Azerbaijan, 1954-1959) adı ilə nəşr etmək istəyirlər. Avqustun 26-da) artıq "Lexington Books" nəşriyyatı ilə müqavilə imzaladıq. Harvardın soyuq müharibə kitab seriyası bu nəşriyyatda çap olunur. Bu mənim Amerikada dördüncü, Harvardda isə çap olunan üçüncü monoqrafiyamdır. "Kiçik millətlər böyük oyunda: Cənubi Qafqaz Rusiya - Türkiyə - İran üçbucağında, 1920-1923" (SMALL NATIONS IN THE BIG GAME: The South Caucasus in the Triangle of Russia, Turkey and Iran, 1920 - 1923) adlı digər bir əsərim isə rəyləşmə mərhələsindədir və onun da nəşr üçün müsbət rəy alacağına ümidliyəm. Oktyabr ayında Pomada, Vyanada, Urumçidə keçiriləcək elmi konfranslara dəvətliyəm. Vyana Diplomatik Akademiyasının keçirdiyi beynəlxalq konfransda "1990-cı ilin (Yanvar) Bakı hadisələri və SSRİ-nin dağılması" mövzusunda məruzə etməliyəm. Qanlı yanvar hadisələrindən sonra Almaniya Demokratik Respublikasındakı vəziyyət müzakirə edilərkən Mixail Qorbaçov yanvar ayının 27-də Sov.İKP MK katibliyinin iclasında deyirdi ki, biz indi ADR-də öz Azərbaycanımızdakı kimiyik: heç kəsə arxalana bilmirsən, heç kəsə etibar edə bilmirsən.

Mən niyə həyatımın bir hissəsini siyasətə ayırmışam? Bir az yekə çıxmasın bu, bizim xalqımız, bizim millətimizdir. Biz onun bu vəziyyətə düşməsinə biganə qala bilmərik. Yaxamızı kənara çəkə bilmərik ki, biz alimik, yazıçıyıq, kinodramaturquq, siyasətlə məşğul ola bilmərik. Bu gün gözümüzün qabağında bir millətin, bir xalqın təməl haqları tapdanır, haqqı əlindən alınır, camaat öz yerində, öz yurdunda əsir, məzlum millətə çevrilir. Millətin vətən və yurda sahiblik hissi bilavasitə ziyalı sözündən, ziyalı mövqeyindən keçir. Bundan əlavə, siyasi məhbusu, seçki demokratiyası, insan haqlarını müdafiə etmək haçandan ziyalı amalına ziddir? Bu gün İntiqam kimi yetkin, təmiz, öz işinə vicdanla yanaşan bir maarifçini müdafiə etməməyin mənəvi anlamı yoxdur. Əgər bu gün kimsə düşünürsə ki, bu avtoritar rejimə qarşı dayananları dar ağacından asıb qurtarandan sonra onların havada yellənən cəsədlərinə təmtəraqlı vida sözləri hədiyyə etməklə öz "ziyalı" borcunu, "vicdan" borcunu yerinə yetirmiş olacaq, məncə, yanılır. Böyük ideyalardan danışıb, kiçik bəhanələr arxasında daldalanmağın limiti bitmişdir. Zülm daimi ola bilməz, bütün diktator rejimləri kimi bu rejim də gedəcək. Bax, o zaman susmuş vicdanların səssiz harayı, bu rejimin hay-küylü işgəncə sınağından daha ağır olacaq.

❑ **Fəridə ABDIYEVA**



> **"Həbsdə olan intellektual məhbuslar öz iradələri ilə həbsin qorxunc kabusunu sındırdılar"**

> **"Niyə bir 10 nəfər möminimiz çıxıb Hacı Talehə, Hacı Abgülə, Hacı Mövsümə atılan şərə, böhtana, zülmə etiraz etmirlər. Axı Beytülhəqqə tapınanlar yaxşı bilirlər ki, zülmü görüb ona etiraz etməmək zalımın əməllərinə şərik olmaqdır"**

# Yadigar Sadıqov Arif Hacılını dəstəklədi



Yadigar Sadıqov

**Müsavat başqanının müşaviri, vicdan məhbusu Yadigar Sadıqov Müsavat Partiyasının növbəti qurultayi və başqan seçkiləri ilə bağlı öz mövqeyini yazili şəkildə açıqlayıb. Bu barədə musavat.com-a vicdan məhbusunun dostu Elman Fəttah məlumat verib. O, təcridxanadan göndərdiyi məktubunda yazır: "İctimaiyyətin böyük maraqla gözlədiyi Müsavat Partiyasının növbəti qurultayı yaxınlaşmaqdadır. Sirr deyil ki, bu tədbirin əhəmiyyətini xüsusiləşdirən amil partiyanın özünə yeni başqan seçəcəyi ilə əlaqədardır. Artıq bir neçə nəfər Müsavatın növbəti, altıncı başqanı olmaq iddialarını ortaya qoymuşdur. Onların hər biri mənim əqidə dostlarım və mücadilə silahdaşlarımdır. Buna görə də onlardan yalnız birini dəstəkləmək, digərlərinə "yox" demək heç də asan seçim deyildir. Lakin Demokratiya həm də zaman-zaman belə dilemmalarla üzləşmək və onları həll etmək zərurətidir.**

Bu seçimi edərkən hər bir namizədin şəxsi və siyasi keyfiyyətlərini, ideoloji baxışlarımızın və siyasi görüşlərimizin yaxınlığını və digər amilləri nəzərə aldım. İctimaiyyətin marağını nəzərə alaraq, ictimai fikrə hörmətlə Müsavat Partiyasının yeni başqan seçkilərində Arif Hacılının namizədliyini dəstəklədiyimi bəyan edirəm.

Arif bəyin uzun illər təşkilati məsələlər üzrə başqan müavini, sonralar isə İcra Aparatına rəhbərlik təcrübəsi başqan dəyişikliyinin daha rahat və fəsadsız keçəcəyinə ümid yaradır. Onun işgüzarlığı, liderlik qabiliyyəti, partiyaya yetərincə vaxt ayıra bilməsi, natiqlik qabiliyyəti, intellekti illər ərzində nümayiş olunmuşdur.

Və nəhayət, mənim üçün çox əhəmiyyətli olan bir məsələyə toxunmaq istəyirəm. Son illərdə Müsavat Partiyası bir sıra qərarlar qəbul etdi və addımlar atdı ki, onların doğruluğu yalnız zamanla təsdiq olundu. İlk dövrlərdə isə partiyanın üzərinə tənqid atəşi yağdı. Bəzi funksionerlərdən fərqli olaraq Arif Hacılı bu tənqidlərdən çəkinməyərək Müsavatın mövqeyini və mənafeyini sona qədər, hətta öz nüfuzuna ziyan vurulacağından çəkinmədən müdafiə etdi. Bu başqanlığa iddia edən siyasətçi üçün kifayət qədər riskli, ona görə də fədakarlıq idi.

Sonda Müsavat Partiyasının qurultayına uğurlar arzulayır, bütün seçkilərin nəticələrinin partiya üçün, Vətən və Millət naminə, Azadlıq və Bərabərlik uğrunda apardığımız müqəddəs davamız üçün xeyirli, uğurlu olmasını diləyirəm.

**Tanrı Azərbaycanı qorusun!"**

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014



# Ermənipərəst ölkələr hansılardır?

Azər RƏŞİDOĞLU

**Gələn il uydurma "erməni soyqırımı"nın 100-ci ildönümüdür. Ermənilər 2015-ci ilə qədər bir çox ölkələrdə qondarma "soyqırımı"nı tanıtmağa çalışırlar. Növbəti il bir çox ölkələrdə "zavallı" erməni xalqının "əzabkeş" obrazını yaratmaq üçün bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. Roma Papası 2015-ci ildə erməni soyqırımı ilə bağlı xüsusi ayin keçirəcəyini bəyan edib.**

Xatırladaq ki, indiyə qədər onlarla ölkə "erməni soyqırımı"nı tanıyıb. Uydurma iddiaları tanıyan ilk ölkə Uruqvay olub. 1965-ci ildə çıxardılan qanunla 24 Aprel günü "1915də "milli soyqırıma" məruz qalan "erməni şəhidlərini" anma günü" elan edilib. Sonra dəfələrlə bu qərar Uruqvay parlamenti tərəfindən təsdiq edilib.

**Yunan Kipri** 1982-ci ildə "soyqırım" iddialarını qəbul edib. İsveç parlamenti 12 mart 2010-cu ildə 1915-ci hadisələrini "soyqırımı" olaraq tanıyıb.

**ABŞ-ın 41 ştatı** "erməni soyqırımı"nın olduğu qəbul edilib. Əsasız "soyqırım"ı tanıyan ştatlar bunlardır - Alyaska, Arizona, Arkanzas, Kaliforniya, Kolorado, Kentukki, Konnektikut, Delaver, Florida, Corciya, Cənub Karolina, Aydaho, İllinoys, Şimal Dakota, Şimal Karolina, Luiziana, Men, Merilend, Massaçusets, Miçiqan, Minnesota, Missuri, Montana, Nebraska, Nevada, Nyu Hempşir, Nyu Cersi, Nyu Mexiko, Nyu-York, Ohayo, Oklahoma, Oreqon, Pensilvaniya, Rod Aylend, Tennessi, Yuta, Vaşinqton, Vermont, Virciniya, Viskonsin.

**Argentinada** "erməni soyqırımı"nı tanıma qanunu 1985-ci ildə qəbul edilib. **Kanada** 1996-ci ildə "soyqırım"ı tanıdığını bildirib. **Yunanıstan** 1996-cı ildə ermənipərəst qanun qəbul edib.

**Livanda** yaşayan erməni lobbisinin gərgin səyləri nəticəsində 1997-ci ildə bu ölkə "soyqırım"ı tanıyıb.

**Belçika** 1998-ci ildə qondarma "erməni soyqırımı"nı tanıdığını bildirib.

**İtaliya** 2000-ci ildə ermənilərin "soyqırımı"na uğradığını qəbul edib. Vatikan İtaliya ilə eyni ildə, 2000-ci ildə əsassız iddianı tanıyıb.

**Fransa** 1998-ci ildə "erməni soyqırımı"nı tanıyıb. Fransada sözdə "erməni soyqırımı"nı rədd etmək cinayət sayılır.

**İsveçrə** 2003-cü ildə, Slovakiya 2004-cü ildə "erməni soyqırımı"nı tanıyıb. Elə həmin il Hollandiya uydurma iddiaları tanıyıb. Polşa, Almaniya, Venesuela və Litva 2005-ci ildə bu məsələdə ermənilərin tərəfini tutub. Çili isə 2007-ci ildə bu barədə qəbul edib.

**Uels, Şotlandiya və Şimal İrlandiya** ermənipərəst qanun qəbul ediblər.

**Avropa Şurası, Avropa Parlamenti, BMT-nin Ayrı-seçkiliyin Önlənməsi və Azlıqların Qorunması Alt Komissiyası** kimi təşkilatlar da "erməni soyqırımı"nı tanıyıblar.

Ermənilərin iddialarının 100 illiyi ərəfəsində Türkiyəyə beynəlxalq təzyiqlərin artacağını da ehtimal etmək mümkündür. Uydurma "erməni soyqırımı"nın 100 illiyi ərəfəsində başda ABŞ olmaqla xristian dünyası tərəfindən Türkiyəyə təzyiqlərin artacağı da ehtimal edilir.

Türkiyənin beynəlxalq təzyiqlər qarşısında Ermənistanla kompromislərə gedə biləcəyi ehtimalı qardaş ölkəni artıq bu gündən silkələyir.

Hətta qardaş ölkənin parçalanması məsələsi də gündəmə gələ bilər. Türkiyənin zəifləməsi avtomatik Azərbaycanın da mövqelərinə zərbələr vuracağı anlamına gəlir.

**"Erməni soyqırımı" iddiaları yalnız Türkiyəyə qarşı deyil, eyni zamanda Azərbaycana qarşı düşünülmüş ssenarinin tərkib hissəsidir. Bu ehtimal Bakı və Ankaranı daha sıx əməkdaşlığa vadar edir...**



# Qubadlının işğalından 21 il keçir

## Azərbaycana 9 milli qəhrəman verən rayonu ermənilər talan edib

**Azərbaycanın Qubadlı rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 21 ili tamam olur. Qubadlı rayonu 31 avqust 1993-cü ildə ermənilər tərəfindən işğal edilib. İşğal ərəfəsində rayonun əhalisinin sayı 30 min nəfər olub.**

Erməni təcavüzü zamanı Qubadlı 5 il müddətində 238 şəhid verib, 146 nəfər əlil olub. Şəhidlərdən Əliyar Əliyev, Vasili Əliyev, Aslan Atakişiyev, Ələkbər Məmmədov, Kərəm Mirzəyev, Aqil Məmmədov, Bəylər Ağayev, Kazımağa Kərimov, Səfa Axundov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Hazırda 35 min 836 nəfərdən ibarət Qubadlı əhalisi respublikanın 42 rayonunda məcburi köçkün ömrü yaşayır.

Qubadlı rayonu 1930-cu ildə yaradılıb. ərazisi 802 kv.km-dir. 94 yaşayış məntəqəsi, o cümlədən, 1 şəhər və 93 kəndi var.

İşğala qədər Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil edib. 2 üzümün ilkin emalı zavodu, 1 yağ-pendir zavodu, 1 asfalt zavodu, 1 inkubator-quşçuluq fabriki, 1 balıqyetişdirmə vətəgəsi, 1 daş karxanası, 1 mərmər sexi, Azərbaycan "Neftqazavtomat" təcrübə zavodunun filialı və s. fəaliyyət göstərib. Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə olub.

Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib.

Qubadlıda 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq-musiqi məktəbi də fəaliyyət göstərib.

Ümumilikdə işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisələri, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılmış, 13365 hektar meşə sahəsi işğal altında qalıb.

Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər. 4-cü əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, 5-ci əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır.

Dünən Qubadlı rayonunun işğalının 21-ci ildönümü ilə əlaqədar Sumqayıt şəhərində tədbir keçirilib. APA-nın məlumatına görə, tədbirdə baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Qubadlı rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, rayon ictimaiyyəti, idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları öncə Sumqayıt şəhərindəki Şəhidlər Xiyabanını ziyarət ediblər. Sonra tədbir Sumqayıt şəhərində yerləşən Olimpiya İdman Kompleksində davam etdirilib. Tədbirdə çıxış edən Qubadlı rayon İcra Hakimiyyətinin başçısı M.İsaqov rayonun işğalı, məcburi köçkün həyatı yaşamağa məcbur olan rayon sakinlərinin sosial-iqtisadi problemlərinin həlli istiqamətində görülən işlərdən danışıb.

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov torpaqlarımızın işğalını daimi kədər içərisində yad etməyin düzgün olmadığını bildirib. Bu gün keçirilən tədbirin formatının fərqli olduğunu deyən Ə.Həsənov Qubadlının mədəni-tarixi abidələrindən danışıb. Onun sözlərinə görə, Qubadlı Azərbaycana Qaçaq Nəbi, Həcər, görkəmli ziyalılar, Valeh Bərşadlı kimi general bəxş edib: "149 Milli Qəhrəmanın 9 nəfəri Qubadlı sakinidir. Bu, rayon əhalisinin düşmənlə kifayət qədər döyüşdüyünü göstərir".

Ə.Həsənov Azərbaycan prezidenti İlham Əliyevin düşmənin işğal olunmuş torpaqlarımızdan çıxaracağına əmin olduqlarını vurğulayıb: "Prezidentimiz mütləq buna nail olacaq. Dövlət başçısı Avropa Şurasında son çıxışında bütün Avropanın iç üzünü açdı. Bunu heç bir prezident edə bilməzdi".

**Tədbir məktəblilərin paradı və idmançıların çıxışları ilə davam etdirilib. Milli Qəhrəman Əliyar Əliyev adına idman klubunun güləşçiləri öz məharətlərini göstəriblər. Vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.**

**ETİBAR**

# Deputatın polis rəisinə qarşı ittihamlarına DİN-dən cavab gəldi

## Fərhad Qəribovun icra başçısı ilə də münasibəti korlana bilər

**Milli Məclisin üzvü Fərhad Qəribov deputatı olduğu Kürdəmir rayonundakı son durumla bağlı danışarkən, rayonun polis rəisinə qarşı ciddi ittihamlar səsləndirib. Deputat teleqraf.com-a müsahibəsində açıq mətnlə bayan edib ki, rayon sakinləri polis rəisinin fəaliyyətindən narazıdırlar: "Narazılıq daha çox Kürdəmir Rayon Polis Şöbəsinin rəisindəndir".**



Fərhad Qəribov

Deputat bunun səbəbləri haqda geniş danışmasa da, polis rəisinin vəzifəsinin öhdəsindən gələ bilmədiyini bəyan edib: "Rayonda narkomaniya güclənib. Mübarizə zəif gedir. Başqa narazılıqlar da var. Geniş danışmayacam. Bir neçə aydır ki, rayonda deyiləm. Rayona gedəndən sonra bu məsələ ilə daha yaxından maraqlanacam. Rəislə görüşüb məsələləri yoluna qoymağa çalışacam."

Göründüyü kimi, deputat F.Qəribov rəisi açıq şəkildə vəzifəsinin öhdəsindən gələ bilməməkdə ittiham edib.

Qeyd edək ki, Kürdəmir Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Oqtay Məmmədovdur. O, bu vəzifəyə keçən il təyin olunub və daha əvvəl Nəqliyyatda Baş Polis İdarəsinin rəisinin müavini vəzifəsində çalışıb.

Daxili İşlər Nazirliyindən deputat Fərhad Qəribovun polis rəisinin fəaliyyəti ilə bağlı fikirlərinə münasibət bildirilib. **DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov** bildirdi ki, Kürdəmirdə istər narkomaniya ilə bağlı vəziyyət, istərsə də bu bəla ilə mübarizə respublikamızın digər bölgələrindən fərqlənmir: "Yəni ümumi problem var və ona qarşı da ümumi mübarizə aparılır. Kürdəmir Rayon Polis Şöbəsinin rəisi də peşəkar polis zabitlərimizdən biri olmaqla rayona rəis vəzifəsinə təyin olunduqdan sonra narkotiklərlə mübarizəni gücləndirib və deyərdim ki, müsbət nəticələr də əldə olunub. Amma bununla belə, bu bəla ilə mübarizədə vətəndaşlarımız da, deputatlarımız da, mətbuatımız da, bir sözlə hamılıqla hüquq-mühafizə orqanlarına kömək etməliyik, dəstək olmalıyıq".

**Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov** isə lent.az-a açıqlamasında rayonun deputatının Kürdəmirdə gənclər arasında narkomaniyanın geniş yayılması və polisin bununla mübarizə aparmaması fikrinə münasibət bildirib.

**İcra başçısı deyib ki, bu fikrə münasibəti mənfidir və Fərhad Qəribovun hansı mənbəyə istinadən belə bir rəyə gəlməsi məlum deyil:** "Düzü, bilmirəm deputat hansı mənbəyə istinadən belə bir fikir səsləndirib. Deyə bilərəm ki, rayon polis şöbəsi qeyd olunan problemlə bağlı fəaliyyətini həmişəki kimi davam etdirir və lazımi profilaktik tədbirlər görülür. Ümumiyyətlə millət vəkilinin bu fikrinə münasibətim mənfidir".

**İcra başçısının rəisi müdafiə etməsindən sonra Fərhad Qəribovun onunla da münasibətlərinin korlanacağı gözlənilir.**

**E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014

# Müsavat başqanlığına namizədlər...



**Müsavat Partiyası başqanlığına namizədliyini rəsmi şəkildə hələlik bir nəfər-Tural Abbaslı irəli sürsə də iddiaçıların sayının 4 olduğu məlumdur. Ortaya əlavə iddiaçılar çıxmayacağı halda Müsavat başqanı olmaq uğrunda mübarizə Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy arasında gedəcək.**

Ölkənin aparıcı müxalifət partiyası olan Müsavata bu dörd nəfərdən biri başqan seçiləcək. Bu baxımdan cəmiyyətin onların tərcümeyi-halı ilə tanış olmaq haqqı var.

Arif Hacılı - Müsavat Partiyasının əsas fiqurlarından biridir. Onu Müsavatın ikinci yetklisi də saymaq olar. 1962-ci ildə Zaqatala rayonunun Yuxarı Tala kəndində anadan olub. Həmin kənddə orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini qırmızı diplomla bitirib. 1983-1988-ci illərdə Zaqatala rayon radiosunun redaktoru işləyib. 1990-1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı olub. Azərbaycanın istiqlalçı deputatlarından, Azərbaycan milli Azadlıq Hərəkatının fəal iştirakçılarından biridir. 1992-1993-cü illərdə Elçibəy hakimiyyəti dövründə Azərbaycan Respublikasının Ərazi Hakimiyyət və İdarəetmə işləri üzrə Dövlət Müşaviri olub. Azərbaycan Xalq Cəbhəsinin yaradılmasında fəal iştirak edib, 1991-1992-ci illərdə AXC Ali Məclisinin sədri olub. Müxtəlif dövrlərdə ərazilərimizin işğalçılardan müdafiəsi, Qarabağın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. 1992-ci ildə Müsavat Partiyasının Bərpa Mərkəzinin üzvü olub. Müxtəlif dövrlərdə Müsavat Partiyası başqanının təşkilati məsələlər üzrə müavini işləyib. 2000-ci ilin parlament seçkilərində Müsavat Partiyasının, 2003-cü ilin prezident seçkilərində prezidentliyə namizəd İsa Qəmbərin seçki qərargahlarının rəhbəri olub. Ümumiyyətlə, Müsavatın iştirak etdiyi bütün seçkilərdə seçki işinə rəhbərliyi Arif Hacılı həyata keçirib. Müsavat həmin seçkilərin hamısında qalib gəlsə də seçki komissiyaları real nəticələri tanımayıb. A.Hacılı 2006-cı ildən Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri, partiya yaranandan Divanın üzvüdür. Mitinqlərin təşkilatçısı və iştirakçısı olduğu, siyasi fəaliyyətində barışmaz mövqeyinə görə iki dəfə uzun müddətə, dəfələrlə müxtəli müddətlərə həbs olunub. Ailəlidir.



Arif Hacılı



Qubad İbadoğlu



Tural Abbaslı



Səxavət Əlisoy

## İsa Qəmbərin kürsüsündə əyləşmək istəyənlərin tərcümeyi-halı nə deyir?

**Qubad İbadoğlu** -1971-ci ildə Füzuli rayonunda anadan olub. Orta məktəbi Bakıda, fizika-riyaziyyat təmayüllü 1 saylı internat məktəbdə bitirib. 1987-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olunub. İqtisad elmləri namizədidir. 1999-2000-ci illərdə Varşavada Ali İqtisad Məktəbində, 2004-2005-ci illərdə Budapeştdə Mərkəzi Avropa Universitetində tədqiqatlar aparıb. 2008/2009-cü tədris ilində ABŞ-ın Kanzas və Şimali Karolina Universitetlərində ixtisasartırma kursları keçib və elmi tədqiqatla məşğul olub. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil" kafedrasında dosent vəzifəsində çalışır. 53 adda və 175 çap vərəqi həcmində elmi əsərin, 20-dək kitabın, monoqrafiyanın və dərs vəsaitinin müəllifidir. 15-dək kitabı və elmi əsərləri dünyanın 10-dan çox ölkəsində çap olunub. "Ekonomiks" qəzeti, "Ekspert" jurnalının baş redaktorudur. İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri, İctimai Birliklərin Mədən sənayesində şəffaflığın artırılması Koalisiyasının əlaqələndiricidir. 2008-ci ildə Ödədiyini Açıqla Beynəlxalq Koalisiyasının Strateji Məsləhət Qrupuna, 2009-cu ildə isə Qara Dəniz QHT Forumunun İdarə Heyətinə üzv seçilib. Q.İbadoğlunun Vikipediyada özü haqqında yerləşdirdiyi məlumatlarda Müsavat Partiyasının üzvü belə olduğu haqda heç bir informasiya yoxdur. Bildirək ki, Q.İbadoğlu 1995-ci ildən Müsavat Partiyasının üzvüdür. Müsavatın iqtisadiyyat komissiyasının sədri olub. Hazırda Məclis və Divan üzvüdür. Ailəlidir.

**Səxavət Əlisoy** - 1957-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Püsyan kəndində anadan olub. Həmin kənddə orta məktəbi, 1981-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirib. Ali məktəbi bitirdikdən sonra əmək fəaliyyətinə Sumqayıt şəhərində başlayıb. 1996-ci ilədək Sumqayıtda müxtəlif tibb müəssisələrində həkim, baş həkim vəzifələrində işləyib. 2000-ci ildən Bakıda yaşayır, bir sıra özəl tibb müəssisələrində həkim kimi fəaliyyət göstərib. 1998-ci ildən Müsavat Partiyasının üzvüdür, bir neçə gün öncəyə qədər Müsavat başqanının müşaviri olub. Ailəlidir. Siyasi fəaliyyətinə görə özü və yaxınları təzyiqlərə məruz qalıb. İki dəfə qısa müddətli həbs olunub. 2010-cu il parlament seçkilərində AXC-Müsavat blokunun Şərurdan deputatlığa namizədi olub. Seçki kampaniyasından sonra doğulduğu ev dağıdılıb, qardaşına və yaxın qohumlarına ciddi xəsarət yetirilib.

**Tural Abbaslı** - 1982-ci ildə Bakıda anadan olub. 4 nömrəli Humanitar Əmək Gimnaziyasını bitirib. 2000-ci ildə Müstəqil Azərbaycan Universitetinin jurnalistika fakültəsinə qəbul edilib. 2003-cü ildə bitirib. 2009-cu ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində Magistratura pilləsinə daxil olub. 2011-ci ildə İctimai Palatanın 2 aprel mitinqdə uzun müddətə həbs olunduqdan sonra magistraturadan xaric edilib. Siyasi fəaliyyətə 2000-ci ildə başlayıb. 18 yaşı tamam olan gün Müsavat Partiyasına üzv olub. 2001-ci ildə Müsavatın Səbael rayon təşkilatında özək sədri seçilib. 2007-ci ildə Müsavat Partiyasının Gənclər Təşkilatının sədri seçilib. Gənclər Təşkilatının sədri olduğu dövrdə aktivliyi ilə seçilib, dəfələrlə kütləvi aksiyalarda iştirakına görə müxtəlif müddətlərə həbs olunub. 2013-cü ildə yaş məhdudiyyətinə görə Gənclər Təşkilatının sədri postundan gedib. Müsavatın Məclis və Divan üzvüdür. Subaydır.

Bu dörd nəfərin tərcümeyi-halına "Müsavat Partiyasının başqanı" yazmaq isə Müsavatın qurultay nümayəndələrinin öhdəsinə düşür.

❑ **Etibar SEYİDAĞA**

## "Uğurlar olsun, Qurban!"

### İsa Qəmbər "Qarabağ" komandasını və Qurban Qurbanovu qələbə münasibətilə təbrik etdi

**Müsavat başqanı İsa Qəmbər "Qarabağ" komandasını və onun baş məşqçisi Qurban Qurbanovu qələbə münasibətilə təbrik edib. "Qafqazinfo" xəbər verir ki, o, bu barədə facebook hesabında yazıb:**

"Qarabağ" komandası Avropa Liqasının qrup mərhələsinə keçdi. Bu münasibətlə bütün xalqımızı, futbol azarkeşlərini, "Qarabağ"ın bütün heyətini və ilk növbədə bu uğurun memarı Qurban Qurbanovu təbrik edirəm! Qurban Qurbanov və futbolçularımız istedad, peşəkarlıq, fədakarlıq və əzm göstərərək qələbəyə ehtiyacı olan xalqımıza yaxşı bir uğur yaşatdılar. İnanıram ki, bu uğurların davamı gələcək. Həm futbol meydanında, həm də digər mübarizə meydanlarında.

Bir futbol ili boyu "Qarabağ" Avropa səviyyəli yarışlarda iştirak edəcək, Qarabağ adı, problemi, ağrısı Azərbaycan adından Avropaya, dünyaya təqdim olunacaq. Mən inanıram ki, bu, istər torpaqlarımızın azad edilməsi yolunda, istərsə də ölkəmizin Avropaya inteqrasiyası yolunda bir addım olacaq. Və addımların davamı gələcək! Uğurlar olsun, Qarabağ! Uğurlar olsun, Qurban!"

## "İsa Qəmbərə başqandan üstün status verilməsi təklifi ilə razı deyiləm"

### Tural Abbaslı: "İsa bəy yenidən başqan olmaq istəsə ona səs verərəm, amma xüsusi səlahiyyət verərək mövcud başqanın səlahiyyətlərinin şübhə altına alınmasının əleyhinəyəm"

**Xəbər verdiyimiz kimi, Müsavat Divanının üzvü Nüşabə Sadıqlı partiyanın VIII qurultayında İsa Qəmbərə başqandan da üstün status verilməsi təklifi ilə çıxış edib. Həmin təklifdə İsa Qəmbərə partiyanın işinə müdaxilə edə bilmək səlahiyyətinin verilməsi nəzərdə tutulur.**

Müsavat başqanlığına namizədliyi qeydə alınan hələlik yeganə namizəd Tural Abbaslı təklifi irəli sürənlərin fikrinə hörmətlə yanaşdığını, lakin yeni seçiləcək başqanın səlahiyyətlərini şübhə altına almağın zərərli ola biləcəyini bildirdi: "İsa bəy dəfələrlə bildirib ki, onun təsis olunacaq hər hansı statusa ehtiyacı yoxdur. Düşünürəm ki, İsa Qəmbərin şəxsi siyasi nüfuzu kifayət qədərdir. İstənilən vaxtda məsələlərə müdaxilə etmək iqtidarındadır. Mən inanmıram ki, hansısa müsavatçı İsa Qəmbər bir postda təmsil olunmasa, onu qəbul etməsin. Bu təklifi praktiki cəhətdən müzakirə etsək, burada nüfuz parçalanmasının şahidi ola bilərik. Belə ki, qurultay keçirilir, yeni başqan seçilir, bundan əlavə də başqanın səlahiyyətlərindən üstün post yaradılır. Dolayısı ilə başqanın hüquqi olaraq idarəetmə səlahiyyətləri azalır. Bu da gələcəkdə partiyada ikitirəliyin, fikir ayrılığının yaranmasına səbəb ola bilər. Nüfuzsuz bir başqanın da hansısa məsələlərdə uğur əldə etməsi mümkün deyil. Odur ki, partiyanın bir başqanı olar və onu da qurultay seçər. Əgər İsa bəy yenidən başqan olmaq istəsə, biz qurultayda bu təklifi səsləndirə bilərik. Nizamnaməyə dəyişiklik edərik. Mən özüm İsa bəyin yenidən başqan seçilməsinə səs verə bilərəm. Amma xüsusi səlahiyyət verərək mövcud başqanın səlahiyyətlərinin şübhə altına alınmasının tərəfdarı deyiləm".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014



# Bəs necə olur, anus dəliyində 3 qram həşişi tutursunuz?

Xalid KAZIMLI

**Nə qədər çabalasalar da, xeyri yoxdur. Gürcüstanda tutulan, Azərbaycandan keçirildiyi əsla şübhə doğurmayan 2970 kilo maye heroin o qədər böyük narkotik partiyasıdır ki, bunu ört-basdır eləmək mümkün deyil.**

Əlbəttə, bu narkotik partiyası Azərbaycanda tutulsaydı da ört-basdır edilməzdi, amma bu o zaman baş verə bilərdi ki, mal azərbaycanlı narkobaronlardan birinə məxsus olmasın və ya onun ölkədən-ölkəyə tranzitində azərbaycanlı məmurlar rol oynamasın.

Fakt isə göz önündədir: "Əsrin tranziti" adlandırıla biləcək narkotik partiyası Azərbaycanda iki gömrük-keçid məntəqəsindən keçib (birindən daxil olub, o birindən çıxarılıb), başqa ölkədə tutulubsa, bu, avtomatik o anlama gəlir ki, yüksək rütbəli və vəzifəli gömrük məmurlarının burada ciddi rolu var.

Əslində, malın azərbaycanlı narkobarona məxsus olması üzərində də ciddi şübhələr var, amma hələ gömrükdə törədilmiş cinayəti (bu boyda səhlənkarlıq ola bilməz) bir kimsənin boynuna qoymaq olmursa, narkobarona heç yaxın getmək mümkün deyil. Bundan ötrü regionda beynəlxalq istintaq qrupu fəaliyyət göstərməlidir.

İndi xəbərlər gəlib ki, Astara gömrük-keçid məntəqəsində bir qrup gömrükçünü postlarından götürüblər. Guya ki, 2970 kiloqram heroinin ölkəyə daxil olmasına görə onlar səhlənkarlıq ediblər və bu səbəbdən cəzalandırılıblar.

Belə şey ola bilməz. Adi, sıravi gömrükçülər bu böyüklükdə narkotik partiyasının ölkəyə daxil olmasından heç vaxt xəbərsiz ola və bu qədər mal üçün məsuliyyəti öz üzərilərinə götürə bilməzlər. Çünki hər girişin bir çıxışı da var. Bu mal ölkəyə girəndə tutulmadısa, çıxanda tutula bilər. Astara gömrükçüləri bunu bilməyə bilməzdilər.

Demək, bütün bu əməliyyat Astara və Qazax gömrük-keçid məntəqəsinə eyni dərəcədə nüfuzu işləyən bir və ya bir neçə adamın iradəsi ilə baş verib.

Amma baxaq, görək, Gürcüstan sərhədindəki gömrük-keçid məntəqəsinin adını çəkən varmı? Yoxdur. Onlar daha çox yerli camaata zülm etdiklərinə görə tanınırlar. Burada "Nehrəmli Kənan" adıyla tanınan gömrük zabitinin başçılığı altında fəaliyyət göstərən gömrükçülər sərhədyanı rayonlarda yaşayan insanların sərhədin bu tayına bir kanistr gürcü çaxırı keçirməsini əngəlləyirlər, amma yüzlərlə kanistrə doldurulmuş maye heroini görmürlər?

Buna kimi inandırmaq olar? Təbii ki, heç kimi. Nağıl danışmağın, əfsanə uydurmağın xeyri yoxdur.

Bu baxımdan əgər Astaradakı gömrükçülər məhz bu heroin partiyasına görə işdən qovulublarsa, Qazaxdakı gömrükçülər də ən azı işdən qovulmalıydı. Düzünə qalsa, onların hamısı kütləvi şəkildə həbs edilərək, istintaqa cəlb edilməli idi.

Bundan daha ötəsi də var. Bu kimi halların baş verdiyi təqdirdə istənilən demokratik dövlətdə, qanunların aliliyinə riayət olunan ölkədə başda gömrük naziri olmaqla bütün gömrük yetkililəri istefaya göndərilməli və nazirlik (komitə) yenidən formalaşdırılardı. Qalmaqalın, biabırçılığın miqyası bu dərəcədə böyükdür. Söhbət dünyanın ən qətiyyətli şəkildə mühakimə etdiyi böyük bir cinayətdən gedir.

Bunun əvəzində 4-5 sıravi gömrükçünü cəzalandırmaqla qalmaqalı yat-yut eləmək mümkün deyil.

Bundan başqa, 3 tona yaxın narkotik maddənin ələ keçirilməsindən sonra xüsusilə də Astara gömrük-keçid məntəqəsində insanların üzərindən 5-6, bəzən isə 50-100 narkotik maddə tapmağı intensivləşdirilib. Gömrükçülər bu yolla sübut etmək istəyirlər ki, guya postlarında çox ayıq-sayıqdırlar. Amma bu kimi faktların özü də onların əleyhinə yönəlir. İnsanlarda haqlı olaraq sual yaranır ki, 3 qram həşişi qaçaqmalçının anus dəliyindən tapıb çıxara bilirsiniz, bəs 3 ton heroini necə buraxmısınız.

**Bir sözlə, gömrükdə mühüm islahatlar aparmağın vaxtı çoxdan çatıb, hətta xeyli ötüb, ləngiyib. Nəhayət, bu dövlət qurumunda bir kənddə doğulan yüzlərlə insanın işləməsi faktına da son qoyulmalıdır, gömrük-keçid məntəqələrinin narkotik vasitələrin daşınması yolunda atdəyişmə duracağı rolu oynamasına da. Gömrük mafiyası dağıdılmalıdır.**

# ABŞ Rusiyanı çökdürmək üçün nə qədər xərcləyə bilər?

**Bəlkə də ciddi heç nə baş verməyəcək. Bəlkə də NATO üzvləri uçan boşqablardan, yad planetlilərdən danışıb sonra da birgə şəkil çəkdirəcək və evlərinə dağılışacaqlar. Amma Rusiya təlaş içindədir. Bu ölkədə fikirləşirlər ki, görən NATO Ukraynaya, Moldovaya və Gürcüstana hansı statusu verəcək? Burada hələ də təlaş içindədirlər ki, NATO Rusiya sərhədlərində çevik qüvvələr yerləşdirəcək, yoxsa bu da bir söz-söhbətdir?**




# Rusiya təlaş içindədir...

## NATO Rusiya sərhədlərində çevik qüvvələr yerləşdirəcək, yoxsa bu da bir söz-söhbətdir?; "Şər imperiyası" yenidən dirçəlməyə can atır; ölkəmizdəki QHT repressiyaları ilə Rusiyanın hansı əlaqəsi var...

Bəli, Rusiya təlaş içindədir, sentyabrın 4-5-də Uelssdə toplaşacaq NATO bosları isə çox danışmağı sevmirlər. Hələlik yalnız çevik qüvvələrlə bağlı nəsə deyilir. NATO rəhbərləri bu qüvvələrin yerləşdirilməsini onunla əsaslandırırlar ki, İkinci Dünya müharibəsindən sonra Rusiya ilk dövlət oldu ki, başqa bir dövlətin ərazisini zorla özünə birləşdirdi...

Üç ölkəyə veriləcək statusa gədikdə isə belə bildirirlər ki, Moldova, Ukrayna və Gürcüstanla "Gücləndirilmiş əməkdaşlıq" sazişi imzalanacaq.

Halbuki bir az əvvəl deyirdilər ki, bu üç ölkəyə tam üzvlük yolunda sonuncu mərhələ olan "Üzvlük planı" təqdim ediləcək...

Düzdür, soyuq müharibə bitəndən sonra ilk dəfədir ki, NATO yenidən Rusiyanı əsl rəqib kimi qiymətləndirməyə başlayıb...

Bunu da irəliyə doğru böyük addım hesab etmək olar. Ən azı ona görə ki, bəlkə bu yolla canımız psevdo-təhlükələrdən qurtula.

Amma burada bir nüans da var. Rusiya təkcə hərbi vahid kimi qiymətləndirilməməlidir. Soyuq müharibə dövründə insan haqları və demokratiya məsələləri SSRİ-ni içəridən sarsıtmaq üçün çox mühüm alət oldu. Bunu etiraf etmək lazımdır.

İndi də məsələ açıq qoyulmalıdır: NATO, ilk növbədə də ABŞ Rusiyanı diz çökdürmək üçün nə qədər xərcləyə bilər? Bəli, sual belə qoyulmalıdır. Bu gün Rusiya NATO-nu, NATO da Rusiyanı özünün əsas rəqibi hesab edir.

Amma Qərbdə bir tərəddüd var. Onlar hələ klassik mənada soyuq müharibə terminini işlətməkdən çəkinirlər...

Qədim Çin filosofları isə deyirdi ki, hər şeyi öz adı ilə adlandırın, onda bir çox məsələlər sadələşəcək. İndi isə Qərb diplomatik manevrlər edir. Halbuki bir məsələ çoxdan aydındır. O da budur ki, "şər imperiyası" yenidən dirçəlməyə can atır.

Bəli, Qərbdə də Rusiya ordusundakı yeni keyfiyyət dəyişikliyi - çeviklik ciddi şəkildə qiymətləndirilir. Orada da etiraf etməyə başlayıblar ki, Rusiya ordusu çox mobilləşib, onlar hətta hərbi təlimləri dərhal hansısa dövlətə qarşı əməliyyata çevirə bilərlər...

Qərəz, təhlükə realdır. Demək olmaz ki, NATO bunu heç görmür. Yox, Blok bu ölkə ilə bütün əlaqələri kəsib. İndi isə vurğuları düzgün qoymağın vaxtıdır. Hər dövrün öz məntiqi var.

Bəziləri deyir ki, Rusiya hal-hazırda qlobal və fərqli ideyanın daşıyıcı deyil, daha kommunizm təhlükəsi yoxdur. Bəlkə də. Amma bu ölkədə SSRİ-ni bərpa etmək haqqında açıq və ciddi mətnlə danışmaqdan belə çəkinmirlər. Məgər bunun özü qlobal və fərqli ideya deyilmi?

ABŞ İraq kampaniyasına təxminən bir trilyon dollar xərclədi. Demək olar ki, bu pullar havaya sovruldu. İndisə gündəlikdə İraqdan da ciddi bir problem var və o, etiraf olunmalıdır. Bu günün də sualı budur ki, ABŞ Rusiyanı diz çökdürmək üçün nə qədər xərcləyə bilər?

İraqdan fərqli olaraq bu pullar havaya sovrulmayacaq. Açığını etiraf edək ki, Avropa ilə assosiasiya sazişi həm də bazarlar uğrunda rəqabətdir. Bu rəqabət hansısa ölkələrə iqtisadi divident, digərlərinə isə, əksinə, iqtisadi tənəzzül və böhran gətirəcək.

Rusiyada bunu daha yaxşı dərk edirlər. Bu ölkə hətta Ukraynaya pul xərcləmək də istəyirdi-təxminən 15 milyard avro təklif edirdilər. Ukrayna Avropanı seçdi. Bu seçim Avropada öz adekvat cavabını tapmalıdır. Bəli, Ukraynaya hər cür siyasi dəstək göstərilir. Amma bu, çox azdır...

Maraqlıdır ki, ümumi situasiyanı bir qədər uzaqda - Azərbaycanda daha ciddi qiymətləndirirlər. Güman edirik ki, ölkədə QHT-lərə qarşı başlanan total hücum təsadüfi deyil. Bir az əvvəldə qeyd etdik ki, bir vaxt QHT-lər, hüquq-müdafiə təşkilatları və demokratiya qurumları SSRİ-dəki rejimi içəridən çökdürmək üçün mühüm instrument oldu...

**Demirik ki, soyuq müharibə yüzə-yüz başlayacaq. Amma Azərbaycanda hakimiyyət özünü bütün təhlükələrdən, hətta bu gün üçün mübahisəli görünən təhlükələrdən belə qorumağı sevir...**

❑ Hüseynbala SƏLİMOV

# Türkiyə ilə birgə Rusiya təhlükəsinə qarşı

## Ukraynadakı proseslər Azərbaycanı qardaş ölkə ilə hərbi əməkdaşlığı tezliklə ən yüksək səviyyəyə qaldırmağı zəruri edir; Ankaranın quru bir bəyanatı Kremldəki qaynar başları soyuda bilərdi...

**Rusiyanın beynəlxalq rəyə məhəl qoymadan Ukraynaya qarşı açıq hərbi müdaxiləyə hazırlaşması, əslində çoxdan Ukraynanın içində olması sövq-təbii başqa postsovet ölkələrini də qayğılandırır. Çünki məntiqlə qonşuluqda yanğındısa, gərək sən öz təhlükəsizliyin qeydinə daha ciddi qalasan.**



Azərbaycan isə Ukraynaya coğrafi baxımdan yaxın olmasa da, tale oxşarlığı və geosiyasət müstəvisində ona bəlkə də ən yaxın, qonşu dövlətdir. Təsadüfi deyil ki, əksər analitiklər Ukrayna məsələsindən sonra Kremlin ilk növbədə Azərbaycanla "məşğul olacağını" təxmin edirlər.

Moskvanın Azərbaycandan əsas istəyi və bu istəyə Bakının olumlu cavab verə bilməyəcəyi də ki, bəlli. Belə olan surətdə imperiya ideallarından əl çəkməyən Putinin Azərbaycanın başını tumarlamayacağı, ondan qəti seçim tələb edəcəyi günün uzaqda olmadığı şəksizdir. Üstəlik, Allah eləməmiş, bu tələb Kremlin Ukrayna böhranından uğurlu çıxması fonunda ediləcəksə.

Odur ki, hər iki variant üzrə nə qədər gec deyil, rəsmi Bakının kontur-təhlükəsizlik tədbirləri hazırlaması qaçılmaz görünür. Bu tədbirlər əlbəttə ki, qardaş və qonşu, güclü NATO ölkəsi kimi Türkiyəsiz reallaşa bilməz. Ukraynadakı proseslər heç vaxt olmadığı qədər Azərbaycanın qardaş ölkə ilə hərbi əməkdaşlığını ən yüksək səviyyəyə qaldırmağı diktə edir. Yanılmırıqsa, Azərbaycanın Hərbi Doktrinasında da önəm məhz Türkiyəyə verilib. Başqa cür ola bilərmi?

Maləsəf, iki qardaş ölkə arasında hərbi-strateji sahədə əməkdaşlıq, ikitərəfli əlaqələr tutaq ki, Rusiya-Ermənistan səviyyəsində olduğu həcmdə deyil. Hələ də Azərbaycanla Türkiyə arasında ən yüksək səviyyədə hərbi əməkdaşlıq və qarşılıqlı hərbi yardım haqda müqavilə imzalanmayıb. Halbuki, buna mane ola biləcək xarici qüvvə və faktorlar demək olar, qalmayıb. Əksinə, Rusiyanın Ukraynaya təcavüzü olan-qalan maneələri də ortadan qaldırıb.

Misal üçün, hərbi əməkdaşlığa əngəl qismində göstərilən Türkiyənin NATO üzvü olması faktoru kimi. Bu gün əgər NATO-nu özü alyans üzvü olmayan Ukraynaya hansısa formada yardım eləməyi götür-qoy edirsə, Türkiyə özünün din-dil qardaşına niyə də eləməsin ki?

Doğrudur, son aylar bu yöndə müəyyən hərəkətlilik müşahidə edilir. Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin milli təhlükəsizliyin qorunması ilə bağlı başlanan üçtərəfli görüşlər bu qəbildəndir. Ancaq hələ ki, söhbət real işlərdən daha çox, niyyət xarakterli bəyanatlardan gedir.

O da faktdır ki, qardaş Türkiyənin hərbi quruculuq və təhlükəsizlik sahəsində təcrübəsindən 2017-ci ilədək tam olaraq peşəkar orduya keçəcək qonşu Gürcüstan qat-qat effektli və səmərəli istifadə edir. Bəs, Azərbaycan niyə tərpənmir? Demirik ki, bu istiqamətdə heç nə edilmir. Ancaq görülən işlərin iki ölkənin qarşılıqlı əməkdaşlıq potensialından aşağı həcmdə olması da faktdır. Zaman isə gözləmir.

Strateji xarakterli müqavilənin imzalanması öz yerində, Azərbaycanın imkanı var ki, misal üçün, zirehli texnika, qırıcı təyyarələrin istehsalına başlamaq istəyən qardaş ölkəyə ən azı, maliyyə (sərmayə) yardımı eləsin, Türkiyə isə NATO təhsili hərbi kadrlarımızın hazırlanmasına dəstəkçi olsun.

Türkiyə eyni zamanda bu qəliz, havası barıt qoxusu verən zamanda bəyanat verə bilər ki, Azərbaycana təcavüz edən qarşısında Türkiyəni görəcək. Yaxud Ankara Naxçıvanla bağlı Qars müqaviləsini xatırlada bilər. Belə bir quru bəyanat Kremldəki qaynar başları xeyli dərəcədə soyudardı.

**Ən önəmlisi odur ki, bu, regionda Türkiyə-Azərbaycan birliyinin sarsılmazlığını nümayiş etdirib, bu amillə hesablaşılmaq imperativi yaradardı. Unutmayaq ki, iki qardaş ölkəni bir-birindən aralayıb ayrı-ayrılıqda zəiflətmək, daha asan idarə edilən vəziyyətə gətirməklə bağlı məkrli qüvvələrin planları mövcuddur. Həm də çoxdan...**

❑ Z. SƏFƏROĞLU

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014

# İtirən tərəf hər birimiz ola bilərik

## Bu həbsləri həyata keçirməklə hakimiyyət Azərbaycanda gələcəkdə baş verə biləcək "Maydan" hərəkatının qarşısını almağı planlaşdırır

**Gözləyə-gözləyə "gözümüzün kökü saraldı". Bəzi siyasilərin və politoloqların verdiyi proqnozların özünü doğrultmadığı bir daha özünü göstərdi. 2005-ci ilin narıncı inqilablar dövründən ümidimizi gah Ukraynaya, gah Gürcüstana, sonrakı dövrlərdə isə "ərəb baharı"na və nəhayət, son olaraq Ukraynada Maydan hadisələrinə bağladıq. Bəzi siyasilər hər dəfəsində "bundan sonra növbə bizimdir" deyə elektoratlarını inandırmağa çalışdılar və buna müəyyən müddətə nail oldular da.**



Suriyada baş verən hadisələr üç ildən artıqdır davam edir və sonucun necə olacağı və nə zaman bitəcəyi belə bilinmir. Bütün dünyanın nəzər-diqqətinin Suriyada olduğu bir müddətdə ötən ilin noyabrında Ukraynada baş verən hadisələr sanki Suriyada baş verənləri arxa plana keçirdi və nəzər diqqəti burada baş verənlərə çəkdi. Eləcə də İraqda baş verən hadisələr - İŞİD-in ortaya çıxması və törətdikləri müəyyən qədər beynəlxalq aləmin nəzərlərini bu bölgəyə çəksə də Rusiyanın Ukraynaya rəsmən qoşun yeritməsi, əksinə diqqəti əsasən bu istiqamətə yönəltdi; İŞİD məsələsini müəyyən qədər arxa plana keçirmiş oldu. Bu faktlar onu göstərir ki, baş verən hadisələr heç də nəzarətdən kənarda baş vermir və idarə olunandır. Bu səbəbdən sabah hansı regionda hansı hadisələrin cərəyan edəcəyini proqnozlaşdırmaq çox çətindir. Regionda və yaxın Şərqdə baş verənlər heç də Azərbaycana təsirsiz ötüşmür. Rusiyanın Ukraynaya qoşun yeritməsi region ölkələri, eləcə də Azərbaycan üçün bir kritik dönəmə gətirib çıxara bilər. Azərbaycanın suverenliyi və müstəqilliyinə ciddi təhlükə yaranır. İran ərazisində İsrailə aid olduğu iddia edilən pilotsuz kəşfiyyat təyyarəsinin vurulması, ardınca bu təyyarənin Azərbaycan ərazisindən qalxması ilə bağlı iddialar, İran və İsrail arasında olaya görə yaranan gərginlik və İranın təhdid notları, hadisənin gündəmə gəldiyi bir vaxta Rusiyanın Ukraynaya açıq şəkildə qoşun yeritməsi də baş verənlərin sistemli olduğunu deməyə əsas verir. Yuxarıda qeyd etdiyim kimi baş verən hadisələr Azərbaycana təsirsiz ötüşmür və hakimiyyət gələn təhlükələri və öz hakimiyyətini qorumaq üçün müxtəlif addımlar atmağa məcbur olur. Bu atılan addımlarla, balans və güzəştli siyasətlə haraya qədər gedəcəyini isə gələcək göstərəcək. Hələlik isə regionda, Yaxın Şərqdə baş verən və bunun fonunda ölkə daxilində baş verən proseslər hakimiyyətin gərgin anlar yaşamasından xəbər verir. Ukraynada Maydan hadisələrindən sonra önləyici tədbirlər görməyə çalışan hakimiyyət daha çox Qərblə əlaqələri olan 3-cü sektorun - QHT-lərin və hüquq müdafiəçilərinin üzərinə hücuma keçdi. İsmayıllı hadisələrindən sonra daha çox gündəmi zəbt edən, beynəlxalq təşkilatların təzyiqlərinə səbəb olan İlqar Məmmədov və Tofiq Yaqublunun həbsi idisə, sonradan hakimiyyət bir-birini arxa plana keçirəcək qalmaqallı həbslər həyata keçirdi və QHT-lərə basqılar edərək onları sıradan çıxarmağa nail ola bildi. Leyla Yunusun həbsi zamanı cəbhə xəttində baş verənlər bu həbsdən beynəlxalq diqqəti müəyyən qədər yayındırsa da, digər həbslər - İntiqam Əliyevin qalmaqallı həbsi, RATİ-də, MHİ-də axtarışların aparılması və bu təşkilatların qapadılması medianın və beynəlxalq təşkilatların diqqətini çəkdi. Naxçıvanda hüquq müdafiəçisi İlqar Nəsibovun vəhşicəsinə döyülməsi isə daha çox səs-küy yaradaraq həftə ərzində ən çox qalmaqallı məsələyə çevrildi. Qeyd etdiyimiz kimi, daha çox diqqət çəkən və qınanan bir mövzu oldu. Bu həbsləri həyata keçirməklə - hakimiyyət Qərblə yaxından təmasda ola biləcək qüvvələri sıradan çıxarmaqla özünün birbaşa və alternativsiz təmas qurmasına şərait yaradır, Azərbaycanda gələcəkdə baş verə biləcək "Maydan hərəkatı"nın qarşısını almağı, siyasi həbsləri daha çox alver vasitəsinə çevirməyi planlaşdırır. Amma bu həbslər heç də Azərbaycan üçün real təhlükənin qarşısını almır. Çünki real təhlükə şimal qonşumuzdandır və yuxarıda qeyd etdiyimiz kimi son hadisələrdən sonra Azərbaycanın müstəqilliyinə və suverenliyinə real təhlükə yaranır. Nəzərə alaq ki, uzun müddət hakimiyyətin repressiya siyasəti, ölkədəki korrupsiya və rüşvətxorluq, fərqli düşüncə sahiblərinə olan basqılar, monopoliya, orta sahibkarlığın inkişafına şərait yaradılmaması, məhkəmələrin müstəqil olmaması, insan haqlarının və mülkiyyət hüquqlarının pozulması xalqı hakimiyyətdən uzaqlaşdırıb. Eyni zamanda uzun illər siyasilərə qarşı aparılan repressiya siyasəti siyasi institutları zəiflədərək pərakəndə vəziyyətə gətirib. Siyasi partiyalar arasında baş verən qarşıdurmalar və əsassız ittihamlar, şəxs və qrup maraqlarına xidmət və prinsipialsızlıq, hakimiyyətin siyasi proseslərə qoşulanlara qarşı amansızlığının yaratdığı xof xalqın siyasi partiyalar ətrafında toplanmasına, proseslərə qoşulmasına imkan vermir və biganəlik yaradır. Şimal qonşumuzdan gələn təhlükənin qarşısını almağın isə yeganə yolu milli birliyin, barış və dialoqun yaranması, müxalifət, iqtidar və xalqın birlikdə müqaviməti ola bilər. Barış və dialoqun yaranması üçün isə ilk addımı hakimiyyət atmalıdır. Siyasi məhbuslar buraxılmalı, ədalətli və şəffaf məhkəmə prosesləri keçirilməli, islahatlara başlanmalı, iqtidarın təkidi və təklifi ilə siyasi yönündən asılı olmayaraq siyasi partiyalar məsələlərin həlli istiqamətində birlikdə müzakirə aparmalıdırlar. Əks təqdirdə isə itirən tərəf hər birimiz ola bilərik.

❑ **Elman ABBASOV**
**Ümid Partiyası sədrinin İnformasiya və Mətbuat üzrə müavini**

## Təbrik



*Avqustun 29-da Ümid Partiyası Gəncə Şəhər Şöbəsinin qocaman üzvü, fəlsəfə elmləri doktoru İmanlı Nəriman Məmməd oğlunun 75 yaşı tamam olur. Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Nəriman müəllimi yubiley münasibətilə təbrik edib.*

*Təbrikdə deyilir:*

*- Hörmətli Nəriman müəllim!*

*Sizi 75 illik yubiley münasibətilə ürəkdən təbrik edir, can sağlığı, uzun ömür, şəxsi və elmi işlərinizdə müvəffəqiyyətlər arzulayıram.*

*Siz Azərbaycan Milli Azadlıq Hərəkatında yaxından iştirak etmiş, ömrünün böyük hissəsini Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, demokratikləşməsi uğrunda mübarizəyə həsr etmisiniz. Eyni zamanda bir ziyalı, elm adamı kimi Azərbaycan elminə böyük töhfə vermiş şəxslərdən birisiniz. Çoxlu sayda monoqrafiyaların və elmi məqalənin müəllifisiniz. 2004-ci ildən etibarən Ümid Partiyasının Gəncə Şəhər Şöbəsinin fəal üzvü olaraq yorulmadan, usanmadan Azərbaycanın demokrtikləşməsi və ərazi bütövlüyü uğrunda prinsipial və ardıcıl mübarizənizi davam etdirirsiniz. Siz həm də gözəl insan, etibarlı dost və əsil ziyalı kimi Ümid kollektivinin hörmətini qazanmışsınız.*

*Bir daha sizi şəxsən öz adımdan və Ümid Partiyası adından yubiley münasibəti ilə təbrik edir, uzun ömür, can sağlığı, siyasi fəaliyyətinizdə və elmi yaradıcılığınızda müvəffəqiyyətlər, Azərbaycanın demokratikləşməsi naminə apardığınız yorulmaz mübarizədə uğurlar arzulayıram.*

*Təbrik edirik!*

*İqbal Ağazadə*
*Ümid Partiyasının sədri,*
*Millət vəkili*



# Bəs küçədə rahat gəzirdilər?..

Zamin HACI
zaminhaci@mail.ru

**Türk yazıçısı Orxan Pamukun "Qar" romanında əyalət şəhərində gənc qızların intihar etməsindən də bəhs olunur. Bunu son bir həftədə Bakıda 4 yeniyetmə qızın itkin düşməsi haqda xəbəri oxuyanda xatırladım. Pamukun əsərində qızlar hicablı, müsəlman idilər və universitetə hicabla gəlmə qadağasına etiraz üçün intihar edirdilər. Bizim qızların itkin düşməsinin səbəbi nədir? Hansı yerli "Pamuk" bunu araşdırıb yazacaq?**

Ancaq Azərbaycan polisinin bu gənc qızların itməsi olaylarına izahatı çox maraqlı idi. Vesti.az saytında polisin adından belə sözlər verilmişdi: "Gənc qızlar sevgi seriallarına baxırlar, fikirləşirlər ki, orda, küçədə onları tam azadlıq gözləyir, o üzdən evdən qaçırlar. Küçədə isə problemlərlə qarşılaşır, zorakılıqla üzləşir, sonra kor-peşman evə dönürlər".

Maraqlı izahat idi. Polisin problemləri kinolara yükləməsi ilk hal sayılmaz. Bu, qabaqkı illərdə hətta nazir səviyyəsində baş verib. Polis naziri demişdi ki, adamlar savaş filmlərinə baxıb kriminala yönəlir. Halbuki, tamam yanlış, sosioloji baxımdan əksi isbat edilmiş bir məsələ idi. Məsələn, araşdırmalara və rəy sorğularına görə ən dəhşətli qorxu filmlərini izləyənlərin say çoxluğunu sizcə kim təşkil edir? Bəlkə qaniçən manyaklar? Qətiyyən. Bu filmləri sevənlər arasında ilk yeri... evdar qadınlar tutur!

Yaxud Kventin Tarantinonun, Takeşi Kitanonun filmlərində qan su yerinə axır, ancaq gedin zindanlarda sorğu keçirdin, siyasi dustaqların bəzilərindən başqa kimsə bu rejissorları tanımaz.

Yəni, kinonun və incəsənətin başqa sahələrinin guya insanları korlaması avtoritar rejimlərin köhnə, kiflənmiş uydurmasından başqa bir şey deyil. Polisin açıqlamasının ikinci hissəsi isə siyasi baxımdan yapistlər üçün biabırçılıq sayılmalıdır. Axı onlar həmişə küçədə yaratdıqları sabitliklə fəxr edirlər! "Cəbhənin vaxtında küçəyə çıxa bilmirdik, indi isə cənab prezidentin uğurlu daxili və xarici siyasəti sayəsində gecə-gündüz gəzirik və sairə qır-bır-dır..." Qulağımızı, baş-beynimizi 21 ildir bu cəfəngiyyatla xarab eləyiblər. İndi isə deyirlər küçədə yeniyetmə qızları problem gözləyir. Onlar zorakılıqla qarşılaşırmış. Peşman olub evə dönürmüş.

Hansı sözünüzə inanaq sizin, səyavuşnovruzov, əliəhmədovkimilər? Hansı düzdür? Küçədə qayda-qanun, ictimai sabitlik varsa, qızlar niyə küçəyə tək çıxa bilmir? Necə deyərlər, bu pişikdirsə, ət hanı, ətdirsə pişik hanı?

Ancaq bu suala da cavabları var: "Dünyanın hər yerində küçəyə özbaşına çıxan yeniyetmə qızlar problemlə üzləşir, tək bizim ölkədə belə olmur, bəsdir ölkəmizə qara yaxdınız, ASAN-xidmət yaratmışıq!" Belə vəziyyətdə daha nə sual verəsən? Problem çıxanda Azərbaycan dünyanın tayı olur, qalan bütün vaxtlarda isə ölkəmizin dünyada analoqu yox imiş! 21 ildir ölkənin böyük bir hissəsi işğal altındadır, atəşkəs adı altında əslində altdan-altdan savaş gedir, kasıbların uşaqları ölür, ancaq görürsən həyasızın biri intervü verir: "Ukraynada, Suriyada olan problemlər bizdə yoxdur, buna görə şükür edək". Halbuki eyni problem sənin ölkənin içində onillərdir oturub. Rusların indi Ukraynada yaratdığı qondarma "Donetsk, Luqansk respublikalarının", yaxud islamçı ektremistlərin Yaxın Şərqdə düzəltdiyi İŞİD-in "Dağlıq Qarabağ Respublikasından" hansı fərqi var? Heç bir fərqi yoxdur. Həmin uydurma tarixlər, guya etnik müqəddəratı təyin etmə və etiqad azadlığı yalanları... Guya bunu görmürlər. Əlbəttə, özünü həyasızlığa qoyanda istənilən diskussiya yağ kimi gedir. Yenə bir gözəl el məsəlimizdə atalarımız bunun düsturunu yazıb qoyublar: "Həyasızın üzünə tüpürdülər, dedi yaz yağışıdır".

**Əslində bənzərliyi tam gizlədə də bilmirlər. Bir ara yapistlər dünyaya guya ağıl öyrədirdilər: "Bax, bizə Qarabağ işində yardım etmədiniz, indi Ukrayna işi ortaya çıxdı". Azərbaycanın xilası, qurtuluşu, sabitlik, nə bilim, qalibiyyətin təntənəsi-zad yaddan çıxmışdı.**

# "QHT işi"nin yeni sensasion tərəfləri üzə çıxır




# "Məni həbs edə bilərlər" - Qubad İbadoğlu

## İqtisadçı alim iki gün öncə prokurorluqda 6 saat dindirilib; onun özünün və təşkilatının bank hesabları bağlanıb: "Heç bir şərtlə Müsavat başqanlığı namizədliyindən geri çəkilmək fikrim yoxdur"

**Müsavat Divanının üzvü, bu partiyanın başqanlığına iddiaçı, İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu 28 avqustda Respublika Prokurorluğuna çağırılıb. İqtisadçı alimi orada 6 saat ərzində dindiriblər.**

Avqustun 29-da "Yeni Müsavat" qəzetinin qonağı olan Q. İbadoğlu bu barədə və eyni zamanda, Müsavat başqanlığına iddiaçı olaraq şansları, fəaliyyət proqramı barədə danışıb.

Həm istintaqda, həm də başqanlıq yarışında geniş ictimaiyyətə bəlli olmayan sensasion məqamları qəzetlə bölüşən Q.İbadoğlu hər an hər şey ola biləcəyini dedi. Bundan başqa, Q.İbadoğlu opponentlərinə münasibətini də açıq şəkildə ifadə etdi.

İqtisadçı alim donor təşkilatlarının və Qərb ölkələri paytaxtlarının "QHT işi" ilə bağlı göstərdiyi və geniş ictimaiyyətə bəlli olmayan fəaliyyətləri açıqlayarkən yeni detallar üzə çıxdı.

"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu və bu sətirlərin müəllifinin iştirakı ilə keçən söhbətin birinci hissəsini sizə təqdim edirik.

***

İlk baxışda olduqca gərgin və qayğılı görünən Qubad bəydən ənənəvi də olsa, öncə əhvalını soruşuq. Dedi ki, ciddi çətinliklərlə üzləşiblər. Sorduq:

***- Nədir çətinlikləriniz? Müsavat başqanlığına namizədliyinizlə bağlıdır, yoxsa başqa çətinlikdən söhbət gedir?***

- Hər iki istiqamətdə var. Birincisi, mənim peşəkar fəaliyyətimlə bağlıdır. Bildiyiniz kimi, mən də vətəndaş cəmiyyəti institutlarından birində - İqtisadi Tədqiqatlar Mərkəzində çalışıram. Uzun müddətdən bəri vətəndaş cəmiyyəti ilə hökumət arasında bir gərginlik var və bu barədə geniş danışmaq istəmirəm, çünki məlumat vermişik. Hökumətin təzyiqlərinə, vətəndaş cəmiyyətinə təsirlərinə hər zaman öyrəncəli olmuşam. Bilirsiniz ki, bu istiqamətdə ən çətin problemlərdən biri də vətəndaş cəmiyyəti içərisində həmrəylik və səfərbərliyin təşkili ilə bağlı idi. Bir müddət əvvəl biz bir qrup vətəndaş cəmiyyəti adından mətbuat konfransı keçirdik və mövqeyimizi ortaya qoyduq ki, təzyiqlər vətəndaş cəmiyyətinin sıradan çıxarılmasına yönəlib Bu arada təmsil etdiyim təşkilat hesabı blokda olsa - fəaliyyətimiz iyunun 27-dən dayansa da, son iki gündə daha ciddi təzyiqlərlə üzləşmişik.

***- Mən bu arada oxucular üçün bir arayış verim ki, Qubad bəyi dünən - avqustun 28-də redaksiyaya dəvət etmişdik. Amma belə məlum oldu ki, onu dünən başqa bir yerə də dəvət etmişdilər və 6 saatını orda keçirib. Sirr deyilsə, hara getmişdiniz və 6 saatınızı harda keçirmişdiniz?***

- Mən dünən bura gəlməyə hazırlaşırdım. Amma sonra məlum oldu ki, Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə getməliyəm.

***- Dindirildinizmi?***

- Bəli, dünən demək olar ki, bütün günümü orda keçirdim. Günün birinci və ikinci hissəsində dindirilmə davam etdi. Bu da mənim qeyd etdiyim problemlə - vətəndaş cəmiyyətindəki mövcud problemlə bağlı idi.

***- Sizi ilk dəfədir dindirirlər?***

- Bu istiqamətdə ilk dəfədir dindirilmə olub. Doğrusu, mən indiyə qədər belə dəvəti gözləyirdim. Çox maraqlıdır ki, bu dəvət məhz Müsavat Partiyasında başqanlığa iddiaçıların öz namizədliklərini qeydiyyata keçirmək və eyni zamanda təbliğat üçün elan edilən gün başladı. Həmin günü Respublika Prokurorluğunda keçirdim.

***- Sizcə, bu, təsadüf idi?***

- Sadəcə, prokurorluğa dəvətlə bu iş bitsəydi, bunu təsadüf hesab edərdim. Amma öz ofisimizə qayıdanda bəlli oldu ki, Səbayel və Nəsimi məhkəmələri eyni tarixdə, eyni məzmunda qərarla mənim çalışdığım İqtisadi Tədqiqatlar Mərkəzinin bank hesabına həbs qoyublar. Bu azmış kimi, mənim şəxsi bank hesablarıma - bütün fərdi, cari, kart hesablarına dünəndən həbs qoyulub.



***- Bu, necə ola bilər? Məhkəmə qərarı olmadan...***

- Məhkəmə qərarında elə bu cür də yazılıb ki, təşkilatın, konkret olaraq mənim bank hesabıma həbs qoyulur. Bu istiqamətdə də bizim məhkəməyə dəvət, orada iştirak etmək barədə hər hansı danışığımız olmayıb.

***- Müdafiə olunmadan, prosesdə iştirak etmədən bank hesablarınıza həbs qoyulub. Bəs əsas nədir?***

- Əsas çox ümumidir. Azərbaycanda xeyli müddətdir başlanmış qeyri-hökumət təşkilatlarının fəaliyyətinin yoxlanması ilə bağlıdır. Oradakı istiqamətlərdən biri çirkli pulların yuyulması, terrorizmə qarşı mübarizə kimi bəndlərdir.

***- Necə? Sizə qarşı bu sadaladığınız ittihamlar var?***

- Bu, ümumi yanaşmadır. İstintaq o yöndə gedir. Məsələ bundan ibarətdir ki, biz hələ məhkəmə qərarını da götürə bilməmişik. Biz bu gün ona cəhd etdik. Gözləyirik, nahardan sonra bir daha müraciət edəcəyik. Biz dedik ki, məhkəmənin qərarını götürüb ondan apelyasiya şikayəti vermək istəyirik. Məhkəmənin qərarı ilə bağlı məlumatı bizə bank çatdırıb.

***- Hansı banklardır?***

- Respublika Bankı və Beynəlxalq Bank.

***- Siz bir iqtisadçı alim kimi beynəlxalq təcrübədə bunun analoqunu görmüsünüzmü? Banklar ilk olaraqmı istintaqda vətəndaş üçün zərbə nöqtəsi ola bilər?***

- Bu, beynəlxalq hüquq normalarına ziddir. Hətta belə bir istintaq getmiş olsaydı belə, zərərçəkən tərəf bu barədə məlumatlandırılmalı idi. Ola bilər ki, məhkəmə qapalı keçirilsin, hansısa qərarlar olsun. Amma məhkəmə qərarı nəyinsə əsasında verilməlidir, istintaq materiallarına istinad etməlidir. Əgər istintaq gedibsə, müəyyən materiallar yığılıbsa, bu materiallar fərd olaraq mənim və çalışdığım təşkilatın fəaliyyəti ilə bağlıdırsa, təşkilat və həmçinin mənimlə bağlı qərar çıxarılıbsa mənim özümün məlumatım olmalıydı. Amma xəbərdarlıq etmədən, heç bir istintaq fəaliyyəti olmadan belə bir qərarın çıxarılması qanunvericiliyə ziddir.

***- Yəni sizin bütün maddi ehtiyatlarınız həbs altındadır...***

- Bəli. Sizə deyim ki, mənim elə böyük maddi ehtiyatlarım yoxdur. Amma həm əməkhaqqı aldığım kart, cari hesabım, təşkilatın hesabı bağlıdır. Bu, yalnız mənim maddi vəsaitlərimə həbs qoyulması ilə bitmir. Bilirsiniz ki, təşkilat varsa, bunun sabit xərcləri var - aylıq kommunal, ofis xərcləri... Bu isə o deməkdir ki, indiki halda heç bir maliyyə mənbəyi olmadan təşkilat bu xərcləri müəyyən müddət qarşılamaq zorunda olacaq. Bu, yalnız mövcud maliyyənin həbs altına alınması yox, eyni zamanda yeni xərclərin yaradılması deməkdir. Bu iki gündə baş verənlər məni xeyli qayğılandırır.

***- Müsavat başqanlığına iddiadan geri çəkilməyi düşünürsüzmü? Bəlkə kimlərsə sizin namizədliyinizi irəli sürüb kampaniya aparmağınızı istəmir.***

- Hər halda, belə qənaətə gəlmək olur ki, kimlərsə mənim bu prosesdə iştirakımı istəmir və yaradılmış baryerlərlə, əngəllərlə bunu həyata keçirir. Hesab etmirəm ki, bu, dünən və srağagünkü proseslərlə yekunlaşacaq.

***- Həbsinizi gözləyirsinizmi? Siz daha çox informasiyalısınız. Daha çox hansı mövzularda suallar verilib? Şəxsi hesablarınız, təşkilatın hesabları bağlı, istintaq altında saatlarla qalmısınız. Yeri gəlmişkən, ölkədən çıxmaq haqda qadağa varmı?***

- Yoxdur, amma istisna deyil... (fikrini dəyişir) İndi yoxdur deyirəm, amma bəlkə də var, mənim məlumatım yoxdur.

***- Qayıdaq suala: Qubad İbadoğlu özünün həbsini gözləyirmi?***

- İndiki şərtlər çərçivəsində həbs təhlükəsi gözləniləndir. Mən gözləyirəm. Nəzərə alsaq ki, Qubad İbadoğlu indiki halda ölkəni tərk etmək, eyni zamanda danışmaq, hərəkət etmək niyyətindədir. Bilirəm ki, belə olan hallarda ssenarilərdən, təkliflərdən biri ondan ibarətdir ki, biz susaq, bu barədə danışmayaq.

***- Konkret Sizə təklif olunubmu?***

- Yox, bu mənə təklif olunmayıb.

***- Bəs "Müsavat başqanlığına namizədliyinizi verməyin" deyə təklif almısızmı?***

- Xeyr, o barədə də mənə heç bir təklif, işarə olunmayıb və müzakirələr də keçirilməyib.

***- Azadlığınız müqabilində təklif olunsa ki, namizədliyinizi verməyin, nə edəcəksiniz? Əks halda tutulacağınızı bilsəniz...***

- Yox, indiki halda Müsavat başqanlığına iddiamı gerçəkləşdirib, onu namizədlik statusuna gətirmək niyyətindəyəm. Heç bir şərtlə, təkliflə onu dəyişmək niyyətində deyiləm. Həbs olunmaqdan da heç bir qorxum yoxdur. Nəzərə almaq lazımdır ki, bu həbs mənim fəaliyyətimin, əlaqələrimin, malik olduğum resursların daha ciddi şəkildə məhdudlaşdırılması deməkdir. İndiki halda mən görürəm ki, resurslarımın məhdudlaşdırılması prosesi gedir. Söhbət təkcə maliyyə resurslarından getmir. Söhbət vaxtdan, eyni zamanda kampaniya üçün müəyyən hazırlıq işlərindən gedir. Hesab edirəm ki, indiki vaxtda bu istiqamətdə fəaliyyət göstərməliyəm, amma məni başqa müstəviyə çəkiblər. Hansı ki, 3 aydır bu proses başlayıb və mən hər zaman gözləmişəm ki, müəyyən müzakirələrdə iştirak edəcəm. Amma çox maraqlıdır ki, bu müddət ərzində mənə elə bir müraciət olmur. İddianı ortaya qoyanda bəlli olur ki, mən bu işlə bağlı ifadə verməliyəm, bank hesablarıma həbs qoyulmalıdır. Hesab edirəm ki, bu, siyasi qərardır və bir qrup tərəfindən mənim Müsavat başqanlığına iddiamın - hələ ki, elan etməmişəm - geri götürülməsinə bir təzyiqdir. Amma mən iddiamı ortaya qoymuşam və yaxın zamanda namizədliyimi qeydə aldırmaq niyyətindəyəm. Bunun gecikməsinin müəyyən səbəbləri vardı. Çünki biz partiya daxilində də qurultaya hazırlıq üzrə təşkilat komitəsinin iclasında bir sıra təkliflər irəli sürmüşdük. Məqsəd Müsavat Partiyasında başqanlıq və digər yerlərlə bağlı keçiriləcək seçkilərdə iştirak edən namizədlərin bərabər hüquq və imkanlarının təminatı ilə bağlı idi. Bildiyiniz kimi, mən iki gün əvvəl Müsavat Partiyasının Divan üzvlüyündən istefa verdim. Düşündüm ki, iddiamı ortaya qoyub, namizədliyimi irəli sürürəmsə, digər namizədlərlə eyni statusda olmağım daha düzgündür. Təbii ki, eyni imkan və hüquqlardan danışmaq mümkündür. Bununla da mesaj yolladım ki, mənimlə bu prosesə qoşulan dostlar da eyni qərarı qəbul etsinlər. Məndə olan məlumata görə, Səxavət Əlisoy da müşavirlikdən istefa verib. Düşünürəm ki, digərləri də yaxın günlərdə seçkilərdə bərabər şəraitin yaradılması üçün hazırkı statuslarından geri çəkilib fəaliyyətlərini dayandıracaqlar. Bir təklif bundan ibarətdir. İkinci qrup təklif isə ondan ibarət idi ki, Müsavat Partiyasında da bir qurum olduğuna, orda inzibati resurslar formalaşdığına görə təklif verdik ki, icra strukturu seçki prosesində iştirak etməsin. Bilirsiniz ki, Müsavatda İcra Aparatı var. Bu aparat geniş maliyyə imkanlarına malik deyil. Amma İcra Aparatı bir statusdur və tənzimləmə imkanlarına malikdir. Eyni zamanda informasiyaya çıxış, qurultay nümayəndələri ilə əlaqələrin yaradılması, müəyyən təsirlərin edilməsi baxımdan İcra Aparatı əlavə inzibati resurslar yaradır. Təklif etdim ki, İcra Aparatı seçki prosesinə qarışmasın. Hətta Azərbaycanda bizim razılaşmadığımız seçki prosesində də Azərbaycan hakimiyyət dairələri çalışır ki, açıq şəkildə icra strukturlarının seçki prosesinə qarışmasına yol verməsinlər. Düşünürəm ki, bu, seçkinin çox sadə və vacib normalarından biridir. Müsavatda keçirilən seçkilərdə də bu, nəzərə alınmalıdır. Bilirsiniz ki, Müsavat başqanlığına namizədlərdən biri İcra Aparatına rəhbərlik edir. O status eyni zamanda imkan verir ki, qurultay nümayəndələrinə müəyyən dərəcədə təsirlər olsun. Eyni zamanda nəzərə almaq lazımdır ki, İcra Aparatının bütün üzvləri Müsavatın qurultaya hazırlıq üzrə təşkilat komitəsinin üzvləridir.

***- Siz çox rahat şəkildə partiya daxilində rəqiblərlə bağlı apardığınız kampaniyanı, şərtləri danışırsınız. Sizə həsəd aparmamaq mümkün deyil. Amma vəziyyət başqa istiqamətlərdə tamam fərqlidir. Biz bir qəzetçi olaraq o istiqaməti çözməyə daha maraqlıyıq. Niyə? Sizi istintaqa çağırıblar, hesablara həbs qoyublar? Bayaq anons verdiniz ki, çirkli pulları Sizdəmi axtarırlar? O zaman suallar yaranır: sizdən nə istəyirlər? Sizə hansı suallar veriblər? Bu "QHT işi" hansı istiqamətə doğru gedir? Niyə bu adamları tuturlar?***

- Əvvəla, hesab edirəm ki, bu, uzunmüddətli hazırlanmış strateji məsələdir. Azərbaycan hakimiyyət dairələri strateji olaraq qərar verib ki, Azərbaycanda vətəndaş cəmiyyətini sıradan çıxarsınlar. Bu qərarın reallaşdırılması istiqamətində çox müxtəlif addımlar var. Bir addım mövcud QHT-lərin fəaliyyətini dayandırmaqdır. Bunun üçün çox sadə variantlardan biri bank hesablarının dondurulması, eyni zamanda bank hesablarına həbsin qoyulmasıdır. Bunu bütün təşkilatlar üçün etmirlər təbii ki. Seçirlər, hansı təşkilatlar ki, onların siyahısındadır, onlara qarşı edirlər. Bu təşkilatların sayı 20-dən çoxdur, onların bank hesabı dondurulub və ya həbs qoyulub. İkinci istiqamət isə mən hesab edirəm ki, yalnız təşkilatın fəaliyyətinin məhdudlaşdırılması deyil. Eyni zamanda vətəndaş cəmiyyəti institutunun rəhbərinin, liderinin fəaliyyətinin məhdudlaşdırılmasıdır. Təbii ki, təşkilatın fəaliyyətinin məhdudlaşdırılması texniki vasitələrlə mümkündür. Amma liderin fəaliyyətinin məhdudlaşdırılması üçün siyasi qərarlar qəbul edilməlidir. Artıq bu istiqamətdə bizim həmkarların, QHT rəhbərlərinin həbsi baş tutub. Bu, o deməkdir ki, cəza təkcə onların fəaliyyətinin dayandırılması ilə yox, həm də özlərinin məhbəsə salınması ilə davam etməlidir.

***- Bu, nəzəri tərəfi... Bəs praktiki tərəf nədən xəbər verir? Sizdən istintaqda nə soruşdular?***

- Mən bunu detallı şəkildə açıqlaya bilmirəm.

***- Niyə? Hamı belə deyir, amma nəticə eyni olur. Onsuz da axırda tuturlar...***

- Biz orda öhdəlik götürürük. Əvvəlcədən sənəd imzalanır ki, bu istiqamətdə danışıqları ictimailəşdirsək, Azərbaycan qanunvericiliyinə görə cəzalandırılacağıq. Onu bizə imzalatmadan buraxmırlar.

***- Amma bizə də bəzi məlumatlar daxil olur. Məsələn, doğrudurmu ki, orda inqilabdan söhbət gedir?***

*(Davamı növbəti sayımızda)*

Söhbəti qələmə aldı:
Sevinc TELMANQIZI




**"Hesab edirəm ki, bu, siyasi qərardır və bir qrup tərəfindən mənim Müsavat başqanlığına iddiamın - hələ ki, elan etməmişəm - geri götürülməsinə bir təzyiqdir"**

# Ramiz Mehdiyev KİV rəhbərlərinin iştirakı ilə müşavirə keçirdi

## Toplantıda Azərbaycanın informasiya təhlükəsizliyi ilə bağlı bir sıra aktual məsələlər müzakirə olunub



**Avqustun 29-da Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsi keçirilib.**

AzərTAc-ın verdiyi xəbərə görə, Ramiz Mehdiyev müşavirədə geniş məruzə ilə çıxış edib. O qeyd edib ki, KİV rəhbərləri və dövlət orqanlarının rəsmi şəxslərinin iştirakı ilə keçirilən toplantının əsas məqsədi Azərbaycanın informasiya təhlükəsizliyi ilə bağlı bir sıra aktual məsələləri müzakirə etmək və mövzu ətrafında fikir mübadiləsi aparmaqdır.



PA rəhbəri deyib ki, Azərbaycanın müasir inkişafı, güclü və yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilməsi, regionda aparıcı rolu, qlobal siyasətdə, beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirdiyi fəallıq müəyyən xarici qüvvələri, xüsusilə də Ermənistanı, erməni lobbisini və onun maraqlarını təmsil edən ayrı-ayrı dairələri ciddi narahat edir. Azərbaycanın mövcud tolerant mühitindən, ölkədəki demokratik ab-havadan, hakimiyyətin humanist siyasətindən sui-istifadə edən bu dairələr və bəzi daxili qruplar cəmiyyəti çaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, ölkəmizin əldə etdiyi mühüm uğurları ləkələmək üçün ciddi səy göstərirlər. O, qeyd edib ki, müxtəlif xarici anti-Azərbaycan dairələrin və onların nəzarətində olan daxili qrupların təxribatçı fəaliyyəti heç zaman hakimiyyəti öz iradəsindən, müstəqil siyasətindən çəkindirməyəcək, cəmiyyəti müəyyən olunmuş inkişaf yolundan, strateji seçimindən geri döndərməyə nail olmayacaq. Bundan sonra da Azərbaycanın milli maraqlarına və qanunvericiliyinə zidd fəaliyyətə görə müvafiq ölçü götürüləcək.

O deyib ki, avqustun əvvəlində Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində müşahidə olunan gərginlik bəzi KİV-lərin, xüsusilə internet resurslarının qanunvericiliyin tələblərinə zidd və qeyri-peşəkar fəaliyyətini, habelə aidiyyəti dövlət orqanlarının informasiyanın verilməsinə məsul olan struktur bölmələrinin öz funksiyalarını lazımi qaydada yerinə yetirə bilməməsini açıq nümayiş etdirib.

R.Mehdiyev cəbhə xəttində vəziyyət barədə yanlış məlumatlar, hərbi hissələrimizin dislokasiyası və hərəkəti, həlak olmuş hərbçilərin sayının süni şəkildə şişirdilməsi və bu mövzuda müxtəlif spekulyativ informasiyaların yayılması, cəbhə bölgəsində yaşayan əhali və ölkə ictimaiyyəti arasında çaşqınlıq yaratmaq cəhdləri, düşmənin maraqlarına xidmət edən məlumatların sızdırılması və s. barədə konkret faktlar göstərib. O xəbərdarlıq edib ki, dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycanın təhlükəsizliyinə ziyan vura bilən məlumatlar dövlət sirri kateqoriyasına şamil edilir və onların ictimailəşdirilməsi qanuna müvafiq məsuliyyət yaradır. Beynəlxalq praktikada belə hallarda qanunvericiliyin tələblərinə uyğun sanksiyaların tətbiq olunduğunu diqqətə çatdıran Ramiz Mehdiyev deyib: "Formasından və məzmunundan asılı olmayaraq Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və Konstitusiya quruluşu əleyhinə istənilən qəsdə və ya qəsd cəhdlərinə, o cümlədən cəmiyyətin informasiya təhlükəsizliyini və milli maraqlarını təhdid edən hallara qarşı hüquqi çərçivədə zəruri addımlar atılmalıdır və xəbərdarlıq edirəm ki, bundan sonra da atılacaq".

Məruzəçi qeyd edib ki, müasir dövrdə medianın ən mühüm funksiyalarından biri də milli maraqları hər şeydən üstün tutmaq, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməkdir: "Vətənpərvərlik, milli dövlətçiliyə sədaqət, milli maraqlar uğrunda prinsipiallıq KİV-lərin fəaliyyətinin başlıca prinsiplərini təşkil etməlidir. KİV-lər cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Vətənə sevgi hissləri, insanlara mənəvi saflıq aşılamalı, onlarda əsl vətəndaşlıq mövqeyinin formalaşmasına dəyərli töhfəsini verməlidir".

Son 11 ildə Azərbaycanın hər bir vətəndaşın fəxr edə biləcəyi inkişaf yolu keçdiyini diqqətə çatdıran R.Mehdiyev bildirib ki, KİV-lər ölkədə görülən işləri, Azərbaycan prezidentinin həyata keçirdiyi uğurlu siyasəti daha geniş və obyektiv şəkildə işıqlandırmalıdırlar.

PA rəhbəri dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin rəhbərlərinə də müvafiq tapşırıq və tövsiyələrini verib.

Tədbirdə PA-nın şöbə müdirləri Novruz Məmmədov, Əli Həsənov, Şahin Əliyev, Mətbuat Şurasının sədri Əflatun Amaşov, dövlət orqanlarının mətbuat xidmətlərinin və kütləvi informasiya vasitələrinin rəhbərləri çıxış edərək mövzu ətrafında fikirlərini bölüşüblər.

**Toplantıda "Yeni Müsavat" qəzetinin və musavat.com saytının baş redaktoru da iştirak edib.**

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014

# Tarixi şəxsiyyətləri qoruyan qanuna ehtiyac varmı?

**Azərbaycanda tarixi şəxsiyyətlər haqda "biədəb sözlər" qanunla qadağan ediləcək. Bu barədə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Nizami Cəfərov avqustun 26-da "Azadlıq" radiosuna verdiyi müsahibədə məlumat verib. Millət vəkili bildirib ki, Azərbaycanda yaradıcı təşkilatların və şəxslərin fəaliyyətini istiqamətləndirən ayrıca qanun qəbul ediləcək: "Azərbaycanda Yazıçılar Birliyi, Bəstəkarlar İttifaqı, Rəssamlar İttifaqı, Teatr Xadimləri İttifaqı və s. kimi təşkilatlar var. Qanun onların fəaliyyətini tənzimləyəcək".**

Tarixi şəxsiyyətlərin qorunmasına gəlincə, N.Cəfərov bildirib ki, yaradıcı şəxslərin şəxsiyyətinin təhqir olunması yolverilməzdir: "Biz çalışırıq ki, yaradıcı şəxsin də tərifini müəyyənləşdirək. Məsələn, bəzi tarixi şəxsiyyətlər təhqir olunur, haqlarında biədəb sözlər işlədilir. Gərək onları müdafiə edək. Məsələn, Səməd Vurğunu təkcə ailəsi müdafiə etməli deyil ki. Onların yaradıcılıqları tənqid, təhlil edilə bilər, amma şəxsiyyətləri tənqid, təhqir oluna bilməz".

**Nizami Cəfərov yaradıcı şəxslərin müəyyənləşdirilməsinin müəyyən normativlər əsasında həyata keçiriləcəyini bildirib:** "Yaradıcı şəxs statusu üçün müəyyən şərtlər var. Məsələn, mükafatlar almış şəxslər, hansısa birliyin üzvü olanlar yaradıcı adam sayıla bilər. Yaradıcı şəxsin müəyyən səlahiyyəti olmalıdır".

Nizami Cəfərovun haqqında danışdığı bu qanun layihəsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Tənqidin qadağan olunması ifadə azadlığının pozulması demək deyilmi? Tarixi şəxsiyyət və ya yaradıcı şəxsiyyət anlayışı necə müəyyənləşdiriləcək, bunun üçün hansı göstəricilər olmalıdır? İctimai müzakirəyə səbəb olan bu sualları biz də bir neçə ictimai xadimlə aydınlaşdırmağa çalışdıq.

**Millət vəkili, DAK həmsədri Sabir Rüstəmxanlı** bildirdi ki, bu qanunun müzakirəsindən xəbərsiz olsa da müsbət dəyərləndirir: "Mənim xəbərim yoxdur bu qanundan. Ancaq hər halda cəmiyyətin özünün mədəni səviyyəsi o yerə gəlib çatmayıbsa, öz keçmişinə, tarixinə, böyük şəxsiyyətlərinə saygı ilə yanaşa bilmirsə, o zaman bu, qanunla tənzimlənməlidir. Ancaq eyni zamanda bu, Azərbaycanda tarixi şəxsiyyətlər haqqında çıxan digər böhtanlara da aid edilməlidir. Bizdə elə mətbuat orqanları var ki, tarixi şəxsiyyətlərimizi başqa millətin nümayəndələri kimi təqdim edirlər. Bunlar tarixi saxtalaşdırmaqla Azərbaycanın mənəvi dəyərlərinə ziyan vururlar. Eyni zamanda tarixi bilməyən insanlar, o dövrün tarixi xüsusiyyətlərini nəzərə almadan bugünkü təfəkkürlə keçmişə yanaşır və ağlına gələn böhtanları tarixi şəxsiyyətlər haqqında deyir. Bu müəyyən qanunla tənzimlənə bilər və doğru addım olar."

**Millət vəkilinin fikrincə, inkişaf etmiş və özünə, keçmişinə, mənəvi dəyərlərinə hörmət edən cəmiyyətlərdə belə qanuna ehtiyac yoxdur:** "Ancaq indiki halda bizdə müəyyən məhdudiyyətlərin qoyulması doğrudur və yeni gələn nəsil üçün daha vacibdir".

**"Ayna- Zerkolo" qəzetinin baş redaktoru Elçin Şıxlı tarixi** şəxsiyyətlərin təhqir olunmasını aradan qaldırmaq üçün ictimai qınaq yolu ilə təsir etməyin daha çox effektli olacağını vurğuladı: "Təhqir insanın tərbiyəsindən asılıdır, ümumiyyətlə heç kimi təhqir etmək olmaz. Tənqidə gəlincə, tənqidsiz yaşamaq mümkün deyil. İstənilən bir şey tənqid olunmalıdırsa bunun qarşısını almaq olmaz. Ona görə də, mən tənqidə qadağa qoyulmasının əleyhinəyəm. Ancaq təhqir yolverilməzdir, son zamanlar ən çox yayılan məqamlardan biri budur ki, Səməd Vurğunu təhqir edirlər - " o, kimdir, o çobandır" və sair. Belə hallar insana xoş gəlmir, bunu deyənlər özləri tərbiyəsizdir. O insanların qanunla ağzını bağlamaq olarmı-olmazmı, bunu demək çətindir. Tənqidə qadağa qoyulmasının tam əleyhinəyəm, amma təhqirin olmaması üçün çalışmaq lazımdır. Düşünürəm ki, qanunvericiliklə bunun qarşısını almaq olacaq. Gərək ictimai qınaq olsun".



**Sabir Rüstəmxanlı:** "İnkişaf etmiş, keçmişinə, mənəvi dəyərlərinə hörmət edən cəmiyyətlərdə belə qanuna ehtiyac yoxdur"



**Elçin Şıxlı:** "Qanunla insanların ağzını bağlamaq olarmı-olmazmı, bunu demək çətindir"



**Cəmil Həsənli:** "Hakimiyyət özünün tarixi şəxsiyyət hesab etdiyi dairəni tənqiddən kənar saxlamaq istəyir"



**Ələsgər Məmmədli:** "Ölkə konstitusiyasına görə belə bir qanunun qəbulu yolverilməzdir"

**Professor Cəmil Həsənlinin** fikrincə, bu qanunun qəbulu ifadə azadlığının pozulması deməkdir: "Mən hesab edirəm ki, bu, yanlışdır. Əgər kimsə tarixi şəxsiyyətdirsə və tarixdə yer tutubsa, onlar keçdikləri yolla, qoyduqları irslə özləri-özlərini müdafiə edirlər. Hesab edirəm ki, belə bir qanunun qəbul edilməsi insanların fikir azadlığını pozur. İndi o necə müəyyən olunacaq ki, tarixi şəxsiyyət kimdir? Kriteriya nədən ibarət olacaq? Məncə, burada hakimiyyətin qayğısı ondan ibarətdir ki, özünün tarixi şəxsiyyət hesab etdiyi dairəni tənqiddən kənar saxlasın. Ona görə də belə bir cəhd edirlər. Məncə, bunu N.Nərimanovu və ya M.Ə.Rəsulzadəni tənqiddən qorumaq üçün etmirlər".

**Hüquqşünas Ələsgər Məmmədli** bildirdi ki, ölkə konstitusiyasına görə belə bir qanunun qəbulu yolverilməzdir: "Mən bu qanunun qəbul olunacağına inanmıram. Çünki Azərbaycan konstitusiyasına əsasən, hər bir insanın ifadə azadlığı var və istənilən şəxsi tənqid də edə bilər, tərif də. Konstitusiyanın bu normasını tənqidi qadağan edəcək qanunun qəbul olunmasına imkan vermir. Təhqirə gəldikdə isə, təhqir onsuz da Cinayət Məcəlləsinin 147-ci maddəsi ilə qadağandır, kimsə təhqirə yol verirsə buna görə məsuliyyət daşıyır. Şəxs həyatdadırsa özü, ölübsə varisləri onun haqqında deyilən təhqiramiz ifadələrlə bağlı məhkəməyə müraciət edə bilər. Düşünürəm ki, bu fikir bu şəkildə deyilməyib, ola bilər ki, mediada yanlış doğru deyil. Nizami Cəfərov çoxsaylı qanunlara səs vermiş, konstitusiyanı dərindən bilən bir şəxsdir və yəqin ki, o, bunu başqa mənada deyib".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycan Monteneqrodakı yarım milyardlıq kurort layihəsini dayandırıb

## Bu ölkənin turizm sektoruna iri yatırımlar qoymağı planlaşdıran xarici investorlar bir-bir "yoxa çıxır"

**Azərbaycan Monteneqroda lüks kurort kompleksinin tikintisini nəzərdə tutan yarım milyardlıq investisiya layihəsində işləri "texniki səbəblərdən" dayandırıb.**



Monteneqronun turizm sektoruna iri yatırımlar qoymağı planlaşdıran digər xarici investorlar da bir-bir "aradan çıxır".

Virtualaz.org saytı Balkan KİV-lərinə istinadən xəbər verir ki, Qətərin "Qatari Diar" dövlət investisiya fondu bu ölkənin Adriatik dənizi sahillərində yerləşən Tivat bölgəsində lüks kurort kompleksinin tikintisini nəzərdə tutan 350 milyon avroluq sövdələşmədən çıxdığını elan edib.

2011-ci ildə başlayan layihəyə əsasın Tivat yaxınlığında beşulduzlu villalardan ibarət kurort şəhərciyi salınmalı idi. Kompleksin salınacağı torpaq sahəsinin mülkiyyət hüququnun əldə edilməsinin problemə çevrilməsi layihəni davam etdirməyə imkan vermir.

Bu ilin iyul ayında Monteneqro hökuməti Britaniya-Monteneqro birgə müəssisəsi olan "Boka Group"la Tivat yaxınlığında elit qolf kompleksinin tikintisinə dair 250 milyon avroluq layihəni də ləğv edib. Sövdələşmənin ləğv edilməsinin səbəbi şirkətin tikinti işlərinə başlamağı gecikdirməsidir.

Hazırda Monteneqro hökumətinin ümidi Azərbaycan şirkəti "Azmont"un Adriatik dənizi sahillərindəki Herseq-Novi şəhəri yaxınlığında elit kurort kompleksinin tikintisi layihəsinədir. Lakin 500 milyon avroluq bu layihədə də işlər getmir. Məlumata görə Herseq-Novi yaxınlığında yeddiulduzlu kurort kompleksinin tikintisinin başlaması dəfələrlə "texniki problemlərə" görə təxirə salınıb. Yəni faktiki olaraq Azərbaycan şirkəti layihəni dayandırıb.

Xatırladaq ki, Balkanların ən kasıb dövlətlərindən biri olan Monteneqroya Azərbaycanın irihəcmli investisiya yatırmaq planı 2012-ci ildən başlayıb. Həmin il Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) Adriatik dənizində keçmişdə hərbi baza yerləşən Kumbor adasının uzunmüddətli icarəyə götürülməsinə dair sövdələşmə əldə edib. Sonradan ARDNŞ icarəyə götürdüyü həmin adada lüks turizm kompleksinin yaradılması layihəsini özəl şirkətə - "ATA Turizm"ə həvalə edib. İki ölkə arasında bağlanmış müqaviləyə əsasən layihəni həyata keçirmək üçün "Azmont İnvestment" adlı şirkət təsis edilib və həmin şirkət kurort kompleksinin yaradılmasına 500 milyon avro yatırım qoymalıdır.

Bu ilin martında investisiya layihəsinə rəsmən start verilib. Mərasimdə çıxış edən iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirib ki, ARDNŞ və 500 milyon avro dəyərindəki layihəni hazırlayan "Azmont İnvestments" şirkəti 2000-ci illərin əvvəllərində tərk edilmiş Yuqoslaviya donanmasının bazasını yenidən qurmaq və onun yerində müasir kurort, həmçinin hotel kompleksi və digər obyektlər inşa etmək niyyətindədirlər.

Nazirin sözlərinə görə, bu layihə sayəsində Azərbaycandakı investorlar indi bilirlər ki, Monteneqro hökuməti ölkədə rahat investisiya mühitini təmin edib: "Deməli, bu layihədən sonra digərləri də olacaq".

**Monteneqronun baş naziri Milo Cukanoviç** bildirib ki, mövcud layihə və Azərbaycanla ikitərəfli münasibətlər ümumilikdə Monteneqro üçün olduqca önəmlidir: "İnvestorların əksəriyyəti qlobal iqtisadi enişin bitməsi ilə bağlı gözləmə mövqeyi tutduğu zaman ikitərəfli yaxşı ələqələr meydana çıxmağa başladı".

**Layihəni 2016-cı ildə başa çatdırmaq planlaşdırılır.**

# Xızıda səhralaşma

## Dağ rayonunun camaatı yayın qızmarında susuzluqdan yanır; icra başçısı əhalinin şikayətini dinləmir

**Xızıda Yezid peyda olub. Yay-qış susuzluqdan əziyyət çəkən camaatın sanki suya gedən yolunu naməlum "div" kəsib. Bu barədə redaksiyamıza yazan şikayətçilər qeyd edirlər ki, son günlər hava şəraitinin dəhşətli isti keçməsi su problemi daha ağrılı edib. Əhali içməli su tapa bilmir. Bu problemi qış aylarında Xızıda olarkən sakinlər "Yeni Müsavat"a danışmışdılar. Amma camaatın susuzluq dərdi həll olunmayıb.**




"Bu Xızıda su tapmaq qədər əzablı iş yoxdur. Camaat yayın qızmarında susuzluqdan yanır. Xızı Kərbəla çölünə dönüb. Elə bil dağ rayonu yox, səhradır. Bu rayonda su problemi həmişə olub. Bulaq hesabına camaat birtəhər keçinib. İcra başçısı Xəzər Aslanov isə kondisionerli otağında oturub, camaatın dərdini fikirləşmir. Bu adam rayona elə bil zülm etməyə göndərilib,"-deyə şikayətçilər gileylənirlər.

Onların sözlərinə görə, icra başçısı Yardımlıdan Xızıya rəhbər gəldiyi vaxtdan bu günə kimi vətəndaşlar su problemi üçün qəbuluna düşə bilmir.

**Şikayətçilər deyirlər ki, 2012-ci ildə Xızının su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üçün təməlqoyma mərasimi keçirilib:** "Həmin vaxt "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, Yaponiyanın Azərbaycandakı səfiri və rayonun icra başçısı tədbirdə iştirak edirdilər.

Belə məlum oldu ki, Xızı bu il, yəni 2014-cü ildə içməli su ilə tam təmin olunacaq. Hamımız da sevindik. İndi il qurtarır, yayın cırhacırında nəfəs almaq olmur, ən çox yayda istifadə edilən də sudur. Amma su yoxdur. Bu açılış mərasimindən 2 il keçib, içməli su yoxdur".

**Sakinlər qəzetimiz vasitəsi ilə "Azərsu" ASC rəhbərliyindən məsələni tezliklə həll etməyi xahiş edirlər. Şikayətçilər əlavə edirlər ki, icra başçısı vətəndaşların şikayətini dinləmək, problemləri həll etmək, məsələnin böyüyüb mərkəzə çatmaması üçün prezident tərəfindən təyin olunub:** "Ancaq Xəzər Aslanov deyəsən təyinatın məsuliyyətini dərk etmir. Onun Xızıda gördüyü işlər torpaq satmaq, bir-iki parkı rəngləmək, divarlara, daşlara pul tökməkdir".

❑ **EMİL**

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014

# QHT sektorunu niyə bitirirlər?

**Azərbaycanda QHT sektoru kritik günlərini yaşayır. Müxalifət bunu repressiya adlandırır. Onların iddiasına görə, iqtidar sanki əlində olan məxfi informasiya və "qara" siyahıya istinad edərək vətəndaş cəmiyyəti institutlarını çökdürməyə başlayıb.**

Bütövlükdə baş verənlərə statistik olaraq nəzər yetirsək, QHT sektorundakı acınacaqlı və mübhəm mənzərə bundan ibarətdir; Qərbin donor təşkilatları ilə əməkdaşlıq edən bütün təşkilatların, demək olar ki, hamısının bank hesabları dondurulub, həbs qoyulub, QHT rəhbərləri banklardan pullarını çıxara bilmirlər, banklara müraciət etdikdə pulları verilmir, işçilərə aylardır maaş ödənilmir (misal olaraq Neftçilərin Hüquqlarını Müdafiə Komitəsi), "İqtisadi Təşəbbüslərə Yardım" İctimai Birliyinin sədri Azər Mehtiyevin əməkdaşlıq etdiyi OXFAM təşkilatına görə istintaq gedir, yüzlərlə QHT nümayəndəsi dindirilib, maliyyə hesabları təftiş olunub.

***

İndiyəcən 20-ə yaxın QHT-nin bank hesabına həbs qoyulub. Hətta bu təşkilatlardan bəzilərinin barəsində cinayət işi açılıb. Ən nəhayət, Vətəndaş Cəmiyyəti İnstitutlarına qarşı bu proses sektorda ən tanınmış şəxslərin həbsi ilə nəticələnib.

Hüquq müdafiəçiləri Leyla Yunus, onun həyat yoldaşı Arif Yunus, İntiqam Əliyev, Rəsul Cəfərov barəsində həbs qətimkan tədbiri seçilib. Yalnız "Qadın Krizis" Mərkəzinin rəhbəri Mətanət Əzizova ölkədən çıxmağa müvəffəq olub, Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun rəhbəri Emin Hüseynovun isə harada olduğu bilinmir. Rəşid Hacılının rəhbəri olduğu Media Hüquqları İnstitutu donorlarını itirib.

Beləliklə, Qərbin, Amerikanın donor təşkilatları ilə əməkdaşlıq edən QHT-lər həyəcan içərisindədir. Göründüyü kimi, QHT-lərlə bağlı qanuna əlavə və dəyişikliklər edildəndən sonra bu sektorda ən sərt tənqidlə çıxış edən təşkilatlar cəzalandırılır.

Hətta ABŞ-ın ATƏT-dəki missiyasının rəhbəri Qari Robinsin həbsdəki QHT rəhbərlərini buraxmaqla bağlı çağırışı da hökuməti ciddi narahat etməyib. Amma işin görünən tərəfi odur ki, hakimiyyət QHT sektoruna açdığı savaşın bir səngərində də Amerikaya qarşı "atəş" açır.

***

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu** "Yeni Müsavat"a açıqlamasında dedi ki, onların da vəziyyəti çox ağırdır. N.Cəfəroğlunun sözlərinə görə, təşkilatın layihələri bağlanıb. Hüquq müdafiəçisi bütün QHT sektorunda belə bir vəziyyətin hökm sürdüyü qənaətindədir:

"Bizim təşkilatın Milli Demokratiya İnstitutu ilə 2 illik layihəsi var idi. Onu da bağladılar. Bizə qrant verən təşkilatlarda bəzi adamları yoxlayırlar. İnanın ki, çox pis vəziyyətdəyik. Bizim təşkilatın 20 nəfər üzvü var. Elə bir vəziyyətdir ki, onlara məvacib verə bilməmişik. Ancaq çalışırıq ki, vəziyyətdən çıxış üçün danışıqlar aparaq və problem həll olunsun. Çünki başqa cür olmur".



Novella Cəfəroğlu: "Layihələrimiz bağlanıb, çox pis vəziyyətdəyik, məvacib verə bilmirik"



Hikmət Hacızadə: "Hökumət elə bilir ki, QHT-lər Qərbdən pul alıb inqilab edəcəklər"

**N.Cəfəroğlu qeyd etdi ki, yaranmış vəziyyətlə bağlı məsələni Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevlə müzakirə ediblər:** "Azay müəllim söz verdi ki, problem həll ediləcək. Bu dəqiqə QHT-lərin çoxunun hesabları bağlanıb, Ədliyyə Nazirliyindən bildiriş ala bilmirik. Məsələn, Səidə Qocamanlı bildiriş ala bilməyib. Əgər təzə layihə olsa bildirişi necə alacağıq, bilmirik".

**N.Cəfəroğlunun sözlərinə görə, sentyabrda məsələ həllini tapmasa işçilərin əmək haqlarını ödəyə bilməyəcək:** "Bilirsiniz ki, bizdə böyük təşkilatdır, regionlarda adamlarımız var. Artıq onlar da məvaciblərini ala bilməyəcəklər. Bəzi jurnalistlər yazırlar ki, vətəndaş cəmiyyəti institutları regionlarda nə iş görüblər? Gəlib baxsınlar, gözəl mərkəzlər açmışıq, fəaliyyət göstərirlər, onların da yanında QHT-lər yaradılıb".

***

**Hüquq müdafiəçisi hökumətin nə üçün QHT sektoruna qarşı qəfil basqılara başlamasını anlaya bilmir. Onun fikrincə, burada hər hansı siqnal olması, yaxud Qərb donorlarından qrant alanların hakimiyyətin dəyişməsi üçün fəaliyyət göstərməsi barədə səslənən fikirlər inandırıcı görünmür:** "QHT-lərə nə qədər pul ayrılsa belə, onlar iqtidarı dəyişməyə qadir deyil.

Biz insan haqlarının pozulduğunu deyə bilərik. Güclü siyasi partiyalar iqtidarı dəyişə bilmirsə, bu təşkilatlar necə edəcək? Üstəlik, QHT-lər var ki, bir özləridir, bir portfelləri. Millətin şüurunu dəyişən siyasi partiyalardır. Siyasi partiyalar güclü olsa vətəndaş cəmiyyəti də güclü olacaq".

**Müsahibimiz sentyabrda vəziyyətin düzələcəyinə ümid edir:** "Hesab edirəm ki, sentyabrda problem həllini tapacaq. Rəsul Cəfərov, İntiqam Əliyevlə bərabər İlqar Məmmədov, Tofiq Yaqublu, Yadigar Sadıqov azadlığa buraxılacaq və siyasi məhbus problemi həll ediləcək".

**Politoloq Hikmət Hacızadənin** fikrincə, hakimiyyət QHT-lərin demokratiya qığılcımı yaydığını düşünür: "Hökumət elə bilir ki, QHT-lər inqilab edəcəklər, Qərbdən vəsait alıb Azərbaycanda mitinqlər, hakimiyyətə qarşı müqavimət təşkil edəcəklər. Onları qorxudan Ukrayna və Misirdə baş verən inqilablardır. Ancaq bu həbslərin, bank hesablarının dondurulmasının başqa bir əsası yoxdur".

**H.Hacızadə həbslərin davam edəcəyini istisna etmir:** "İndi hamını həbs edə bilərlər. Deyirlər ki, bu adamlar qulağımız dibində vızıldayırlar, qoyun getsinlər içəriyə. Ona görə də bax belə vəziyyət yaranıb".

❑ **Emil SALAMOĞLU**

# Qərb Azərbaycanı görünməz kanallarla sıxır

## **Elxan Şahinoğlu:** "Qərbin ciddi təzyiqi olsaydı, rəsmi Bakı müstəqil QHT-lərin üzərinə bu qədər arxayın getməzdi"



Elxan Şahinoğlu

**ABŞ Dövlət Departamentinin sözçüsü Jen Psaki Azərbaycan hökumətini beynəlxalq öhdəliklərinə əməl etməyə çağırıb. Naxçıvanda "Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzi"nin direktoru İlqar Nəsibovun qəddarcasına döyülməsi haqda sualı cavablandıran rəsmi bu haqda dünəndən bəri əlavə yeni məlumata malik olmadığını deyib.**

İ.Nəsibovun durumu ilə bağlı Dövlət Departamentinin öncə açıqladığı bəyanatın Azərbaycan hökumətinin davranışı ilə bağlı ilk bəyanat olmadığını vurğulayan sözçü Vaşinqtonun Azərbaycanda sivil cəmiyyətə tətbiq edilən məhdudiyyətlərdən dərin narahatlığını ifadə edib. "Son vaxtlarda biz Azərbaycanda sivil cəmiyyətə, söz azadlığına qoyulan məhdudiyyətlərin artdığını müşahidə edirik. Biz Azərbaycan hökumətini öz vətəndaşlarının universal hüquqlarına hörmət etməyə, onlara öz fikirlərini sərbəst ifadə etməyə imkan verməyə çağırırıq". Jen Psaki əlavə edib ki, Azərbaycan vətəndaşlarının hüquqlarına hörmət olunması xalqın mənafeyinə və firavanlığına xidmət edəcək mühüm amildir.

"Amerikanın Səsi"nin ABŞ Dövlət Departamentindəki müxbiri Azərbaycan hökumətinin bu çağırışlara məhəl qoymadığı təqdirdə, insan haqları sahəsində vəziyyəti yaxşılaşdırmaq üçün rəsmi Bakıya qarşı nə kimi ölçülər götürülə biləcəyini soruşub.

**"Mən spesifik plan açıqlaya bilmərəm," deyə Dövlət Departamentinin sözçüsü bildirib.** "Biz insan haqlarının pozulmasından narahatlıq keçirən avropalı müttəfiqlərimizlə və başqa tərəfdaşlarımızla birgə işləyirik. Konkret bu məsələdə də fəaliyyətimizi davam etdirəcəyik".

**Rəsmi Bakı məsələyə sərt reaksiya verib.** "ABŞ Dövlət Departamenti sözçüsünün Azərbaycan ilə əlaqədar verdiyi açıqlamalar əsassız və qəbuledilməzdir". Bu sözləri **Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Elman Abdullayev** bildirib. "Siyasi mahiyyət daşıyan və Azərbaycanın daxili işlərinə qarışmaq və siyasi təzyiq göstərmək cəhdlərinə xidmət edən bu kimi açıqlamalar heç cür həqiqəti əks etdirmir. Azərbaycanda qanunun aliliyi, fundamental hüquq və azadlıqların qorunması və məhkəmə-hüquq sisteminin müstəqilliyi tam şəkildə təmin olunub". (modern.az) E.Abdullayev qeyd edib ki, ABŞ digərlərində problemlər axtarmaq əvəzinə, öz daxilində insan hüquqları sahəsində mövcud olan çoxsaylı problemlərlə ciddi surətdə məşğul olsun. "Missuri ştatının Ferquson şəhərində baş verən hadisələr bir daha onu göstərdi ki, insan hüquqlarını xarici siyasət alətinə çevirən ABŞ sərbəst toplaşmaq və ifadə azadlığının təmin edilməsi, etnik və irqi zəmində ayrı-seçkiliyin və hüquq-mühafizə orqanları tərəfindən qeyri-proporsional şiddətin və ifrat zorakılığın tətbiq olunmasının qarşısının alınması istiqamətində fundamental hüquq və azadlıqlar üzrə üzərinə götürdüyü öhdəliklərinə riayət etməkdən uzaqdır" deyə nazirliyin sözçüsü bildirib.

**Aldığımız məlumata görə, Qərbin təzyiqləri yalnız şahidi olduğumuz bəyanatlardan ibarət deyil.** Belə ki, ABŞ və Avropa Azərbaycanı görünməz kanallarla da sıxır və bu barədə hər hansı açıqlama verilmir. Güman olunur ki, bura ayrı-ayrı məmurlara qarşı sanksiyaların tətbiq olunması hədələrindən tutmuş bank hesablarının dondurulmasına qədər bir sıra təzyiq rıçaqlarının işə salınacağı barədə mesajlar daxildir. Etibarlı mənbədən qəzetimizə sızdırılan məlumata görə, bəzi Avropa ölkələrindən 2015-ci ildə Azərbaycanda keçiriləcək Avropa Oyunlarının boykot edilə biləcəyi haqda xəbərdarlıqlar da səslənib. Məlumata görə, Avropa Oyunlarına ciddi hazırlaşan rəsmi Bakı vəziyyətin bu həddə gəlib çıxmasını arzulamadığı üçün yaxın aylarda, xüsusilə də payız dönəmində vəziyyətin yumşaldılması üçün addımlar atmaq, əfv vermək və siyasi məhbus yükünü nisbətən azaltmaq niyyətindədir. Bəzi ekspertlər də hesab edir ki, vəziyyət indiki şəkildə davam edə bilməz. Odur ki, hakimiyyət həm daxildə durumu yumşaltmaq, həm də Qərblə dil tapmaq üçün müəyyən addımlar atmalıdır.

**Politoloq Elxan Şahinoğlu** deyir əslində ABŞ və Avropa Birliyinin Azərbaycanda bir sıra müstəqil QHT-lərin sıxışdırılmasına ciddi reaksiyasını müşahidə etmir: "Doğrudur, bəzi avropalı rəsmilər və amerikalı diplomatlar rəsmi Bakının daxili siyasətini tənqid edən açıqlamalar verirlər, həbsləri pisləyirlər, ancaq bu açıqlamalar Azərbaycan hakimiyyətini siyasi kursuna təsir etmir. Azərbaycanın Avropa Şurası Nazirlər Kabinetinə sədrlik etməsi də həbslərə mane olmur. Bu ondan irəli gəlir ki, rəsmi Bakı təhlükəsizlik və enerji məsələlərində ABŞ və Avropa ilə əməkdaşlıq edərkən, daxili məsələlərin həllində sərbəstdir və özünə kənardan təzyiq hiss etmir. Digər tərəfdən Ukraynada və Avrasiya bölgəsinin müxtəlif hissələrində müharibə gedərkən, Qərb ölkələri rəsmi Bakıya ciddi təzyiq etmək istəmirlər. Qərbin ciddi təzyiqi olsaydı, rəsmi Bakı müstəqil QHT-lərin üzərinə bu qədər arxayın getməzdi. Elə dövlət başçısı İlham Əliyev də yayda Azərbaycan diplomatları qarşısında çıxış edərkən belə bir ifadə işlətmişdi: "Heç bir amerikalı və avropalı rəsmi və ya diplomat mənimlə görüşdə daxili məsələləri qaldırmır, məndən nəsə tələb etmir..."

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014



# Dünya üçün Ukrayna imtahanı

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Bütün bəşəriyyət SSRİ adlı bir imperiyanın süqutundan sonra rahat nəfəs alırdı. Ən azından bir-biri ilə daban-dabana zidd olan iki qlobal qütbləşmə aradan qalxmışdı. Daha kommunizm təhlükəsi yox idi. 70 ildən artıq bir müddət ərzində bütün irili-xırdalı müharibələrdə əli olan bir ölkədən gələn təhlükə sovuşmuşdu. Ən azından belə gözləntilər 20 il davam etdi...**

Dünyanın inkişaf etmiş nəhəngləri iqtisadi potensialı zəif olsa da xammal təchizatçısı olan ölkəni öz sıralarına qatdılar. Rusiya sənaye nəhəngləri sırasında 8-ci ölkə oldu...

Demək olmaz ki, bu illər ərzində Rusiya ciddi sıçrayış yolu keçdi. Əksinə, ənənəvi korrupsiya daha böyük fəlakətə çevrildi. Dövlət idarəçiliyində isə demokratik dəyərlərdən imtina etmək yolu seçildi. Totalitar cəmiyyətdə yaşayan insanlar belə idarəçiliyə qarşı müqavimət göstərmədilər. Az sonra bəlli oldu ki, Rusiya fərqli qütbdə dayanır və bu ölkə indi avtoritar idarəçiliyin hökm sürdüyü ölkələrin dayağına döndü...

İndi kiminsə şübhəsi varmı ki, Rusiya bu yolu seçməsə idi, Azərbaycandakı rejim belə sərt, amansız bir yolunu seçərdi. Rusiya amili post-sovet ölkələrində bir nümunəyə döndü. Təzə-təzə yaranan demokratiya cücərtiləri məhz bu ölkədə insan haqlarına, mətbuat azadlığına qoyulan qadağalardan digər ölkələrə yayıldı.... İndi istisnasız olaraq, Belorus da, Qazaxıstan da, Azərbaycan da, Özbəkistan da... öz addımlarını Rusiyaya uyğunlaşdırırlar...

Təkcə Azərbaycan nümunəsində Rusiyada baş verənlərin heyrət doğuran bir sinxronluqla təkrarlandığını görə bilərik. Məhz Rusiyada müxalifət sərt rəftarla üzləşəndən, azad mətbuat qadağan ediləndən sonra oxşar proseslər Azərbaycanda da baş verdi. Tarixə ötəri nəzər salın - Vladimir Putin hakimiyyətə gələndən az sonra bəlli oldu ki, bu ölkə demokratik dəyərlərdən imtina yolu tutub, hətta o vaxta qədər ki, demokratiya imitasiyası da gülüş obyektinə döndü ... Eyni proseslər heyrət doğuran ardıcıllıqla bizim ölkəmizdə təkrarlandı...

Özü heç bir demokratik dəyər tanımasa da, məhz bu ölkə bütün gücü ilə Azərbaycanda, istisnasız olaraq, bütün parlament və prezident seçkilərinə demokratiya damğası vurdu... Hiss olunurdu ki, Qərb də belə məqamlarda Rusiya ilə ziddiyyətləri dərinləşdirmək istəmir. Bizi də, bizim ölkəni də Rusiyanın strateji maraq dairəsində olan bir coğrafi məkan sayır. Getdikcə belə yanaşma da az qala normaya döndü. Bizim ölkəni idarə edənlərdən demokratiya tələbləri səngidi. İndi acı bir mənzərə göz önündədir...

Qəribə də olsa, məhz indi Rusiyadan qaçma meyli onun müdafiə etdiyi ölkələrdə güclənib. Bu illər ərzində hakimiyyətdə olan klanlar yetərincə varlanıblar. Onlar öz sərvətlərini Rusiya hökmdarları ilə bölüşmək istəmirlər. Tarix də bunun üçün bir örnəkdir...

Kim bilir, Rusiyanın yeni imperiya yaratmaq istəyi yolunda Ukrayna maneəsi olmasa idi, biz hansı fəlakətlərlə üzləşərdik. Qlobal təhlükə hələ də sovuşmayıb.

Ukraynanın yeni hökuməti bütün resursları işə salıb ölkənin iki vilayətindəki separatizmə son qoymaq istədi. Rusiya isə sürünən işğal yolunu seçdi. İndi bəlli olur ki, Ukraynanın hərbi təchizat baxımından resursları zəifləyib. Rusiya isə bunu fürsət sayıb, əks hücuma keçib. Artıq Ukrayna yox, bütün mütərəqqi bəşəriyyət sınağa çəkilir. Ukraynanı məğlubiyyəti dünyanın siyasi xəritəsini tamamilə dəyişə bilər, daha böyük faciələrin qarşısını almaq mümkün olmaz. Qərb ölkələri buna qarşı o qədər də qətiyyətli olmayan müqavimət göstərirlər. Ancaq açıq-aşkar hiss olunur ki, bütün bunlar yetərli deyil. Daha ciddi sanksiyalar yolunda isə biznes maraqları dayanır. Bu ölkələr Rusiyaya yönələn bazarı itirdikcə daxili müqavimətlə üzləşirlər.

Kimə sirdir ki, biz bir toplum kimi qlobal təhlükəyə ən yaxın məsafədəyik. Ukraynada vəziyyət Rusiyanın xeyrinə dəyişsə, dərhal hədəfə alınan biz olacağıq. Rusiya öz niyyətinə çatmaq üçün Azərbaycan kimi zəif immunitetə malik olan ölkədə istənilən təxribata əl ata bilər. Buna heç kimin şübhəsi yoxdur. Üstəlik ölkədəki durum da elə vəziyyətdədir ki, yalnız təsadüflər köməyə yetə bilər.

**Azərbaycanın Dağlıq Qarabağ problemi var. Rusiya isə Ermənistandakı qoşunları ilə bu savaşın yeni mərhələsində açıq və gizli iştirakçı ola bilər. Axı bu şər ölkəsi öz niyyətinə qovuşmaq üçün bütün çirkinliklərdən yararlanıb.**



# Şeyxin mərasim zallarında qadağalara məhəl qoyulmur

## "Təzəpir"də yas mərasimləri əvvəlki qaydada keçirilir

**Avqustun 22-dən etibarən Azərbaycanda yas mərasimlərində ehsan verilməsi qaydasına qadağalar tətbiq olunur. Bununla bağlı qərar dövlətin rəhbər strukturunda verilib. Bundan sonra yas mərasimlərində israf qida məhsullarının verilməsi yolverilməzdir. Hüzr məclislərində süfrədə yalnız çay və qənd, xurma olmalıdır.**

Eyni zamanda, avqustun 26-də Qafqaz Müsəlmanları İdarəsi də yas mərasimlərində israfçılığa yol verilməsi hallarını pisləyən bəyanat yayıb.

Bəs, görəsən, dəfələrlə bu haqda bəyanat yayan Qafqaz Müsəlmanları İdarəsi bu qurumun tabeliyində olan mərasim zallarında keçirilən yas mərasimlərində ehsan süfrələrinə sözügedən qadağanı tətbiq edirmi?

Mərasim zallarının hazırkı durumunu müşahidə etmək üçün "Yeni Müsavat"ın müxbiri Təzəpir məscidinin nəzdindəki mərasim zalında olub.

Əməkdaşımız müşahidə edib ki, sözügedən qadağa mərasim zalında ehsan süfrələrində tətbiq edilməyib, süfrədə hər cür naz-nemət görmək mümkündür. Sanki burada heç kimin qadağadan xəbəri yoxdur. Ehsan olaraq plov, aşqara, salatlar, dovğa, ayran, pendir, göy-göyərti, meyvələr, meyvə suları, müxtəlif şirniyyat, çərəzlər və sair verilir. Başsağlığına gələnlər bir yandan axundun moizəsinə qulaq asır, bir yandan da yeməklərin dadına baxırlar. Bəs, görəsən israfçılıq haqqında hər kəsdən çox danışanlar niyə bu cür ehsan süfrələrinə yol verir?

Hüzr mərasiminin gedişinə mane olmadan insanlarla söhbət edirik. Yasda olanlar deyir ki, hamımız uzaq yoldan gəlmişik: "Ac gəlib, ac getmək də düzgün deyil". Ancaq hər biri təsdiqləyir ki, bu dərəcədə bər-bəzəkli, şirniyyatlı ehsan süfrəsi açmaq ənənəsi yığışdırılmalıdır, ehsan süfrələri daha sadə olmalıdır.

**Məclisin ağsaqqallarından biri isə qadağaların bu ənənəyə təsir etməyəcəyini deyir:** "Bu adət-ənənədir. Azərbaycanda hər zaman ölən adam üçün ehsan verilib. Ehsan süfrəsində yemək olmalıdır. Evində hüzr düşən adama başsağlığı vermək üçün hərə bir rayondan gəlib. Bu adamlar gedib harada yeməlidir?"

**Yas mərasimini aparan din xadimi Ağasəlim Səlimov** isə deyir ki, bir neçə gün öncə Yasamal Rayon İcra Hakimiyyəti başçısı din xadimlərini toplayaraq tapşırıq verib: "Tapşırıq verildi ki, mərasim zallarında yemək və digər qidaların verilməsinə qadağa qoyulub və bunu insanlar arasında yaymaq, təbliğat aparmaq vəzifəsi din xadimlərinin üzərindədir. Ancaq bunun qarşısını almaq üçün məsləhət vermək, tövsiyə etmək yetərli deyil. Biz məlumat versək də, insanlar gedib öz bildiyini edir. Gedib yas mərasiminin gedişinə müdaxilə edə bilmərik. Bunun yeganə çıxış yolu odur ki, mərasim zallarına, məscidlərə tapşırıq verilsin. Vətəndaşlar gəlib yer danışanda zalın rəhbərliyi bu qadağanı xatırlatsın. Bizim o dərəcədə təsir imkanımız yoxdur."

Qeyd edək ki, mərasim zallarında bir nəfərlik masanın qiyməti 15 manatdır. Bu qiymətə menyudakı yeməklər də daxil olduğundan, qadağalara əməl etmək obyekt sahiblərinin iqtisadi maraqlarına uyğun deyil. Çünki, bu yeməklər süfrədən götürülsə qiymətlər də əvvəlkinə nisbətən ucuzlaşacaq.

**İstənilən məsələdə nəticəyə nail olmaq üçün, qadağa qoyanlar ilk olaraq özləri buna əməl etməli, cəmiyyətə nümunə göstərməlidirlər. Hətta bu onların şəxsi maraqlarına zidd olsa belə. Əks halda ilk günlərindən məhəl qoyulmayan qadağalar bir neçə ay sonra tamamilə unudulacaq.**

❑ Nərgiz LİFTİYEVA
Foto: Məğrur SALMANOV







# Kənd Təsərrüfatı Nazirliyindən Rusiyaya daşınan məhsullarımız haqda açıqlama

## Nazirliyin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev: "Avqustun 30-da paytaxtın bəzi bazarlarında monitorinqlər aparacağıq"

**Xəbər verdiyimiz kimi, Qərb ölkələrinin Rusiyaya sanksiya tətbiq etməsindən sonra Azərbaycandan ərzaq idxalını artırması yerli bazarlarda bahalaşmaya səbəb olub. Paytaxt Bakıda ərzaq bazarında meyvə-tərəvəzin qiymətində müşahidə olunan artım həm alıcıların, həm də satıcıların narazılığına səbəb olub. Bu barədə "Yeni Müsavat"ın əməkdaşı Bakının "8-ci kilometr" bazarında müşahidələr aparıb.**

Satıcılar bəzi meyvə, tərəvəz və bostan bitkilərində qıtlıq yaşanmaqla yanaşı, bahalaşma səbəbindən əhalidə alıcılıq qabiliyyətinin azalmasından da narazılıq ediblər.

Bəs müşahidə olunan bu vəziyyətlə bağlı Kənd Təsərrüfatı Nazirliyinin (KTN) mövqeyi necədir? Nazirliyin mütəxəssisləri hansı önləyici tədbirlər görməyi planlaşdırırlar? Problemin həlli üçün Rusiyaya ixrac olunan məhsullara hər hansı məhdudiyyət qoyula bilərmi?

"Yeni Müsavat"a verdiyi açıqlamada bu sualları cavablandıran **Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev** nazirlik tərəfindən belə bir durumun müşahidə olunmadığını bildirib: "Daxili bazara da məhsullar istənilən qədər çıxır, əhalinin tələbatı da ödənilir. Bazarlarda, yarmarkalarda, bəzi topdansatış yerlərində biz monitorinqlər keçirmişik. Meyvə və tərəvəz məhsullarında biz elə bir qiymət artımı müşahidə etməmişik, hiss olunacaq dərəcədə bahalaşma yoxdur, normal qiymətlərdir. Təbii ki, kənd təsərrüfatı məhsullarının istehsalı mövsümi xarakter daşıdığından



bəzilərinin bazara çıxışı azalır. Məsələn, bostan məhsullarından qarpızın, yemişin mövsümü artıq başa çatmaq üzrədir. Bu il çox aşağı qiymətlərə əhali bu məhsulları ala bildi. Ancaq bu həftə artıq bu məhsulların qiymətində artım müşahidə elədik".

**KTN-nin mətbuat xidmətinin rəhbəri yerli məhsulların Rusiya bazarına ixrac edilməsini fermerlərin iqtisadi imkanları baxımından müsbət qiymətləndirdi:** "Biz kənd təsərrüfatı məhsullarını idxal da edirik, ixrac da. Bazar iqtisadiyyatı şəraitində heç bir məhdudiyyətdən söhbət gedə bilməz. Əksinə, bu proses fermerlərin varlanmasına, iqtisadi imkanlarının yaxşılaşmasına gətirib çıxaracaq. Hər zaman fermerlərlə görüşdə kənd təsərrüfatı məhsullarının istehsalçıları məsələ qaldırırlar ki, məhsulları əkib-becəririk, ancaq sata bilmirik. Ancaq indi həm daxili bazara çıxara bilirlər, həm də Rusiya bazarına. Bu da fermerlərin marağının artmasına səbəb olur və daha çox məhsul istehsal etməyə həvəsləndirir".

Ət və süd məhsullarının qiymətinin artacağı ilə bağlı proqnozlara gəlincə, Murtuzəli Hacıyev bildirdi ki, hazırda bu məhsulların qiyməti stabil olaraq qalır və bahalaşma gözlənilmir.

**M.Hacıyevin sözlərinə görə, nazirliyin nümayəndələri avqustun 30-da paytaxtın bəzi bazarlarında monitorinqlər aparacaq, yerli bazarlarda durumla maraqlanacaqlar.**

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014

# “Qarabağ”ın uğuru Qarabağın uğurudur

**Avqustun 28-də Azərbaycanın futbol tarixində ilk dəfə olaraq “Qarabağ” futbol klubu Hollandiyanın güclü “Tvente” klubu ilə heç-heçə qalaraq, qrup turnirinə vəsiqə qazandı. Bu hadisə hamımızı təbii ki, həm də “Qarabağ” adının Azərbaycan toponimi kimi Avropada insanların beyinlərinə həkk olunması baxımından sevindirdi.**




Hər halda, futbol fanatları ilk dəfə qruplarda oynayacaq bu klubun adı ilə maraqlanan zaman Qarabağın işğalda olmasını biləcəklər, Avropanın minlərlə insan tutumuna malik nüfuzlu stadionlarında bayrağımız dalğalanacaq, Qarabağ sözü üzərində yazılmış köynəklərdə oyunçular və azarkeşlər stadionlarda olacaq, futbol mütəxəssisləri bu klub barədə danışacaqlar. Bundan əlavə, Qarabağın qruplardakı hər oyununda bütün dünyanın diqqəti yönələcək.

*Bütün bunların fonunda bir sual meydana çıxır: qazanılan idman zəfəri Qarabağ məsələsinin həllində hansı rolu oynaya bilər?*

## Zahid Oruc: “İdmançılarımızın zəfərini səngərdə dayanan əsgərin apardığı mübarizənin davamı saymalıyıq...”

**Deputat Zahid Oruc** hesab edir ki, “Qarabağ”ın qələbəsi Azərbaycanın milli mübarizəsinə ən böyük töhfələrdən biridir: “İdman siyasətin mühüm hissəsidir. Hətta bəzən özüdür. Bir sıra hallarda siyasətdən də önə çıxa bilir. Biz bunun tarix boyu şahidi olmuşuq. Xüsusilə, I və II Dünya müharibələrində. ”Qarabağ"ın uğuru Azərbaycanın milli mübarizəsinə çox mühüm töhfədir. Kiçik bir xatırlatma edim ki, şotlandlar indinin özündə də ingilislərin tərkibindən çıxmaq üçün müxtəlif mübarizələrdən keçirlər. Onlar dünya çempionatında ingilislər üzərində qazandıqları 2-1-lik qalibiyyəti düz bir il milli zəfərə çevirdilər. Ən azından özlərinə inam qazandılar ki, biz qalib gələ bilərik. Almaniyanın güləş salonlarının girişində bir şüar asılıb. “Düşməni öz sənətində məğlub et”. Biz idmançılarımızın uğurlarını səngərdə dayanan əsgərin apardığı mübarizənin davamı saymalıyıq. “Qarabağ” klubunun adı ilə Qarabağ adının beynəlxalq aləmdə Azərbaycanla bir səslənməsi böyük töhfə olacaq. Qrup mərhələsindəki oyunlar zamanı təkcə stadiondakı azarkeşlər yox, eyni zamanda ekran qarşısındakı izləyicilər də Qarabağ brendinin Azərbaycanla bir olduğunun şahidi olacaqlar".

Zahid Oruc “Qarabağ”ın nailiyyətinin ciddi bir uğur olduğunu bildirdi: “Bu klubun tərkibində öz millətimizin mənsubları çoxdur. Qarabağ sözün həqiqi mənasında milli bir komandadır. Azərbaycanın insanın özünə inamında da bu mühüm bir hadisə oldu. Şəxsən özüm oyunu izləyirdim. Hamımıza xoş bir ovqat oldu. Davamlı olmağını arzulayıram. Onların imzasını səngərdə dayanan əsgərin də yazması üçün bir hadisə kimi dəyərləndirirəm”.

**Deputat bundan sonra da “Qarabağ”ın qazandığı uğurların davamlı olması üçün dövlətin verə biləcəyi dəstəkdən də danışdı:** “Bildiyimiz kimi, Qarabağın oyunlarını Ağdamda keçirmək məsələsində müəyyən problemlər yarandı. İlk növbədə bu problem həllini tapmalıdır. Hər oyunçu bu illər ərzində ölkə başçısı tərəfindən dəstək görüb. Klubun ən aşağı yaş etibarı ilə sistemli, strateji investisiyalarının artmasına ehtiyac olacaq. Bunlar şəxsi oyunçuların şəxsi hesabına uğur yazılması kimi əlamətdardır. Onlar beynəlxalq məkana özlərini təqdim edə bilirlər. Eyni zamanda transfer üçün də böyük imkandır. Bütün mənalarda yaxşı bir hadisə kimi dəyərləndiririk. Təkcə qruplarda deyil, daha yüksək yerlərə getməsi üçün mütərəqqi bir hadisə kimi qiymətləndirirəm”.

**“Yeni Müsavat” olaraq, “Qarabağ” klubunun qazandığı uğur münasibətilə xalqımızı, azarkeşləri təbrik edir, klubumuzun gələcək də qələbələrinin davamlı olmasını arzulayırıq.**

❑ Cavanşir ABBASLI

# Xırdalanın icra nümayəndəsinin bazar monopoliyası

## Yol kənarlarındakı obyektlərdə çalışan satıcıları “Təzə bazar”a köçməyə məcbur edirlər; yaranmış vəziyyət alıcıların da narazılığına səbəb olub

**Redaksiyamıza Xırdalan şəhər sakinlərindən şikayət daxil olub. Şikayətdə deyilir ki, artıq bir neçə aydır pərakəndə satış məntəqələrində, mağazalarda kartof, soğan, pomidor, xiyar, göyərti, ət və başqa kənd təsərrüfatı məhsullarının satışı qadağan edilib. Bu məhsulların yalnız 28-ci məhəllədə yerləşən və “Təzə bazar” adlanan yerdə satılmasına icazə verilir.**

Şəhərə girərkən müşahidə etdik ki, yol kənarlarında olan marketlərin böyük hissəsi bağlanılmışdı. Bəziləri isə artıq sökülürdü.

Marketlərdən birinə müştəri qismində daxil olduq. Satıcıya meyvə almaq istədiyimizi dedik.

Cavab belə oldu:

- Mənim artıq 1500 manatım yoxdur. Bizə meyvə, tərəvəz, kartof, soğan, mal əti, toyuq əti və bu kimi məhsulların satışı qadağan edilib. Əgər kimsə satsa 1500 manat cərimə edilir. Özü də heç bir qəbz də vermirlər.

***- Kim qadağan edib?***

- İcra nümayəndəsi *(Söhbət Abşeron rayon İcra Hakimiyyəti başçısının Xırdalan şəhəri üzrə İcra Nümayəndəsi Fikrət Orucovdan gedir -* ***red.****)*

***- Qadağaya səbəb nədir?***

- Rəsmi olaraq deyirlər ki, lisenziyamız yoxdur.

***- Yoxdursa, niyə almırsınız?***

- Mümkünsüz kimi bir şeydir. Çünki lisenziyanı icra hakimiyyəti verir. Elə şeylər tələb edirlər ki, lisenziya almaq mümkün olmur.

***- Bəs qeyri-rəsmi səbəb nədir?***

- Səbəb bazardır. İstəyirlər ki, öz bazarları yaxşı işləsin. Çünki oranın qazancı öz ciblərinə gedir.

***- Yol kənarında olan marketlərin böyük hissəsi ya bağlıdır, ya da sökülüb. Buna səbəb nədir?***

- İcranın işidir. Çünki satılacaq bir şey qalmayıb. Alver olmur deyə çox adam ya dükanını bağlayır, ya da məcbur qalıb bazardan yer götürüb işləyir. Mən də 1-2 aya marketi bağlamaq fikrindəyəm. Demək olar ki, müflisəm. Məcbur qalıb, bağlayacağam.

Marketdən çıxıb adı çəkilən yeni bazara yollandıq. Bazar təzə tikilmiş çoxmərtəbəli binanın zirzəmisində yerləşir. İlk baxışdan normal ticarət mərkəzi kimi görünür. Amma piştaxtalarda olan tərəvəz və digər məhsulların üzərində qiymət yox idi. Satıcılardan birinə yaxınlaşıb almanın qiymətini soruşduq. Bizə 3 manat 50 qəpik qiymət deyildi. Bazarı bir az gəzib həmin yerdən bir də keçdiyimiz zaman başqa bir alıcıya həmin alma üçün 2 manat 70 qəpik qiymət deyilirdi. Maraqlıdır...

Əslində vəziyyətin belə olması başadüşüləndir. Çünki satıcılar arasında hansısa bir rəqabət yoxdur. Alıcı bazara gəlirsə məcbur olub deyilən qiymətlə razılaşmalıdır. Çünki adı çəkilən məhsulları başqa yerdən almaq şansları yoxdur.

Diqqətimizi bazarın yaxınlığında yerləşən “ARAZ” market cəlb etdi. Çünki bu marketə qadağa tətbiq olunmurdu. İstənilən qədər meyvə, tərəvəz məhsulları almaq olardı.

**Yaranmış vəziyyət pərakəndə satış məntəqələri tikib, son bir aya qədər bu məhsulların satışı ilə ailəsinin dolanışığını təmin edənlərin ciddi narazılığına səbəb olub. Adının çəkilməsini istəməyən və bu qadağaya görə ət dükanını bağlamağa məcbur olan şəhər sakini deyir:** “Mən qəssabam. Daha doğrusu bir neçə aya qədər qəssab idim. İndi işsizəm. Çünki ət satmağa qoymurlar. Deyirlər ki, get bazarda yer götür, orada sat. Mənə isə bu sərf eləmir. İstədikləri icarə pulu həddindən artıq çoxdur”.

**Bu qadağa şəhər sakinlərini də narazı salıb. Bazarın önündə rastlaşdığımız alıcı Şəfiqə Əliyeva deyir ki, bu qadağalar onların yaşam tərzini çətinləşdirib:** “Tutaq ki, evə qonaq gəlib. Yemək bişirmək lazımdır. 1 kiloqram pomidor, xiyar, kartof, soğan, yaxud başqa bir kənd təsərrüfatı məhsulu lazımdırsa, gərək bir taksiyə əyləşib bazara qaçasan. Üstəlik, bazarda seçim imkanı da yoxdur. Bazardakı satıcılar kənd təsərrüfatı məhsullarını demək olar ki, eyni və Bakıdakı bir çox pərakəndə satış məntəqələri ilə müqayisədə daha baha qiymətə təklif edirlər”.







Məsələnin qanuni tərəfləri ilə bağlı **hüquqşünas Müzəffər Baxışovla** əlaqə saxladıq. M.Baxışovun sözlərinə görə, əgər satış üçün normativ şərait varsa heç bir qadağa ola bilməz: “İcra hakimiyyətinin bu məsələyə yanaşması yanlışdır. Çünki bütün şəhər ərazisində pərakəndə satış məntəqələrində, mağazalarda kənd təsərrüfatı məhsullarının satışını qadağan etmək olmaz. Bu, qanunla da yolverilməzdir. Buna görə icra orqanları qanun qarşısında məsuliyyət daşıyırlar. Bu öz vəzifəsindən sui-istifadə etməkdir. Əgər normativlərə cavab verə bilməyən dükanlar varsa onlara qanun çərçivəsində qadağan qoyula bilər”.

**İqtisadçı-ekspert Samir Əliyev** isə deyir ki, kənd təsərrüfatı məhsullarının satış imkanlarını artırmaq, bazarlarda süni qiymət artımının qarşısını almaq istəyiriksə, satıcılara lazımi şərait yaratmalıyıq: “Burada isə hər şey əksinədir. Şərait daha da pisləşdirilir. Bütün dükanlara qadağa qoyaraq, məhsulları bir əldə saxlamaq yolverilməzdir. Bu, bazarda rəqabəti məhv edir, qiymətlərin süni şəkildə qaldırılmasına şərait yaradır. Əgər kimsə normativ şərtlərə riayət etmirsə, standartlara cavab verə bilmirsə onlara qarşı qanun çərçivəsində hansısa qadağalar tətbiq etmək olar. Bu qadağanı hər kəsə şamil etmək olmaz”.

❑ Məhəmməd TÜRKMƏN
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014

## "Nar Mobile" abunəçilərini Rouminq mükafat proqramı ilə sevindirdi

### Abunəçilər artıq rouminq xidmətinin hər dəqiqəsinə görə uçuş xalları qazanacaqlar

**"Nar Mobile" mobil operatoru xaricə səyahət edən abunəçilər üçün olduqca səmərəli olacaq eksklüziv xidmət - Rouminq proqramını təqdim edir. Bu proqrama əsasən, artıq xaricə səyahət edən "Nar Mobile" abunəçiləri istifadə etdikləri rouminq xidmətinə görə mobil operator tərəfindən uçuş xalları qazanacaqlar. Mobil operatorun rouminq xidmətindən daha çox istifadə edən abunəçilər topladıqları xallar hesabına böyük üstünlüklər əldə edəcək, "Nar Mobile" tərəfdaşı olan havayolu şirkətləri və otellər şəbəkəsi tərəfindən pulsuz aviabilet və ya otellə təmin ediləcəklər.**

**Səyahətdə olarkən istifadə etdikləri rouminq xidmətinin hər dəqiqəsinə görə əlavə xal qazanmaq istəyən "Nar Mobile" abunəçiləri Rouminq mükafat proqramına pulsuz qoşula biləcərlər. Mütəmadi səyahət edən və telefon, SMS və ya İnternetdən faydalanmasından asılı olmayaraq, rouminq xidmətindən daha çox istifadə edən "Nar Mobile" abunəçiləri topladıqları səyahət milləri və xallar hesabına AZAL, Turkish Airlines, Air France, Qatar Airways və Ukraine İnternational Airlines kimi havayolu şirkətlərindən hədiyyə olaraq aviabiletlər qazanmaq, "Hilton" və "Marriott" kimi beynəlxalq otellər şəbəkəsinə aid olan otellərdə ödənişsiz qalmaq imkanı əldə edə biləcəklər.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile", 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır.**

# Polis "Hafka"nın cinayət törədən cangüdənlərinin izinə düşüb




**"Hafka" kimi tanınan oliqarx, nəqliyyat naziri Ziya Məmmədovun keçmiş biznes ortağı Hafiz Məmmədovun cangüdənləri olduğu təxmin edilən bir qrup şəxsin taksi sürücüsü Fərhad Əliyevi avqustun 24-də axşam naməlum istiqamətə apararaq vəhşicəsinə döyməsi faktı üzrə araşdırmalar davam edir.**

Araşdırmaların hansı mərhələdə olmasını aydınlaşdırmaq üçün Daxili İşlər Nazirliyi mətbuat xidmətinin rəis müavini Ehsan Zahidova müraciət etdik.

E.Zahidov virtualaz.org saytına açıqlamasında sözügedən hadisə ilə bağlı nazirlikdə heç bir məlumat olmadığını bildirdi.

Zərərçəkənin müraciət etdiyi ilk instansiyadan - Binəqədi Rayon Polis İdarəsi 6-cı polis bölməsindən əvvəlcə bu barədə məlumatlarının olmadığını dedilər.

Amma sonradan RPİ-nin təhqiqatçısı Elvar Quliyev taksi sürücüsünü döyənlərin kimliyinin müəyyənləşdirildiyini bildirdi: "Bizə xəstəxanadan məlumat daxil oldu. Xəstəxanaya gedib döyülən şəxsi dindirdik, izahatını aldıq. Onun özü də hansı səbəbə görə, nə üçün döyüldüyünü bilmirdi. Eləcə deyirdi ki, maşınla dalımca düşüblər. Fərhad Əliyevi izləyən maşının kimə məxsus olması artıq müəyyənləşdirilib. Sadəcə istintaq sirri olduğundan hələlik bu barədə məlumat vermək istəmirik".

Fərhad Əliyevin həyat yoldaşı Yeganə Əliyeva virtualaz.org saytına açıqlamasında bu gün Binəqədi RPİ 6-cı polis bölməsindən ona zəng vurub işlə maraqlandıqlarını dedi: "Xəstəxanada həyat yoldaşımın yanında qalıram. Polisdən zəng vurub bir neçə dəfə "hadisə ilə bağlı yoldaşınızın yadına əlavə nəsə düşübmü" deyə soruşublar. Bizə həmin şəxsin axtarışda olduğunu, amma hələlik tapılmadığını deyirlər. Daha sonra Abşeron Rayon Polis İdarəsindən gəlib Fərhadı dindirdilər. Dediklərinə görə, hadisə həmin ərazidə baş verdiyindən aidiyyəti üzrə onlara göndərilib".

Y.Əliyeva son ümidini ölkənin birinci xanımı Mehriban Əliyevaya müraciət etməkdə gördüyünü bildirdi: "Başqa çıxış yolum yoxdur. Həyat yoldaşımı döyənlər, ona bu cür işgəncə verənlər məni də təhqir ediblər. Fərhada "övladınız yoxdur, biz sizə övlad verərik" deməklə həm onu, həm də məni alçaldıblar. Mehriban xanıma müraciət edəcəyəm. Ümidim yalnız onadır".

Hüquq-mühafizə orqanlarından virtualaz.org saytına verilən məlumata görə, Fərhad Əliyevi izləyən avtomobilin sahibi müəyyənləşdirilib. Bu, Naxçıvan sakini, 1973-cü il təvəllüdlü Əhmədov Əli Nəsrəddin oğludur.

Xəbərdə deyilir ki, hal-hazırda əməliyyat-istintaq qrupu taksi sürücüsünün döyülməsində, ona işgəncə verilməsində əli olan digər şəxslərin də məsuliyyətə cəlb olunması ilə bağlı əməliyyat-istintaq tədbirlərini davam etdirir.

Xatırladaq ki, 1967-ci il təvəllüdlü Fərhad Əliyev avqustun 24-də axşam saatlarında tanımadığı şəxslər tərəfindən qaçırılıb. O, idarə etdiyi "BMW" markalı, 10 MR 051 dövlət nömrə nişanlı maşınından düşürülərək başqa maşına mindirilib və naməlum istiqamətə aparılıb. Səhər saatlarına qədər isə vəhşicəsinə döyülüb. Fərhad Əliyev hazırda 1 saylı Klinik Xəstəxanada müalicə alır.

## Tovuz rayonunda baş vermiş qəzada 2 qardaş ölüb

**Tovuz rayonu ərazisində iki nəfərin ölümü, 3 nəfərin isə xəsarət alması ilə nəticələnmiş yol nəqliyyat hadisəsi baş verib. Tovuz rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsindən APA-nın yerli bürosuna bildirilib ki, hadisə Bakı-Qazax magistral yolunun 433-cü kilometrliyində Tovuz rayonun Cəlili kəndi ərazisində baş verib.**

Gürcüstan vətəndaşı Mamuti Çamburyaninin idarə etdiyi yük avtomobili ilə Turxan Əmraslanovun idarə ediyi "Mercedes" markalı maşın toqquşub.

Hadisə zamanı minik maşınında olan iki qardaş - Rövşən və Samir Balayevlər dünyasını dəyişiblər. Yaralı Turxan Əmiraslanov və onun sərnişinləri Şəhriyar Nuriyevlə Qabil Vəliyev ağır bədən xəsarətləri ilə Tovuz Mərkəzi Rayon Xəstəxanasına yerləşdiriliblər.

Faktla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır.

## Bakıda qız üstündə kütləvi dava düşdü

**Metronun "Neftçilər" stansiyası yaxınlığında "Ledi Şarm" geyim mağazasında yaranan mübahisə kütləvi davaya səbəb olub. Axar.az-a verilən məlumata görə, müştəri satıcı qıza söz atıb və mübahisə yaranıb.**

Mübahisə əlbəyaxa dava ilə nəticələnib və müştərini döyüblər.

O da öz növbəsində hadisə yerinə tanışlarını çağırıb və dava daha da böyüyüb. Dostunun köməyinə gələnlər mağazanın administratorunu döyüb, başını-gözünü partladıb, mühafizəçinin isə ona dəyən zərbədən ürəyi gedib, dükanda işləyən dərzi də döyülüb. Yaxınlıqda isə bir minik maşını dava zamanı təpiklərdən zədələnib.

Polis hadisə yerinə gələndə mağaza işçilərini döyənlər aradan çıxıblar. Məlumata görə, mağazada çalışanlar ciddi şəkildə xəsarət alıblar.

## Paytaxtda "Shacman" mikroavtobusla toqquşdu: 4 yaralı

**Bakının Səbail rayonunda ağır yol qəzası baş verib.APA-nın məlumatına görə, Bayraq meydanının yaxınlığında baş verən qəzada "Ford" markalı mikroavtobusla " Shacman" markalı yük maşını toqquşub.**

Qəza nəticəsində "Ford"da olan sürücü və 3 sərnişin ağır bədən xəsarətləri alaraq deformasiyaya uğrayan maşında sıxışıblar. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları çağırılıb. Xilasedicilər sürücü və 3 sərnişini maşından çıxararaq aidiyyatı üzrə təhvil veriblər. Yaralılar təcili yardım vasitəsi ilə xəstəxanaya çatdırılıblar. Səbail Rayon Polis İdarəsindən verilən məlumata görə, hazırda qəzada yaralananların şəxsiyyəti müəyyən olunur. Eyni zamanda qəzanın başvermə səbəbi ilə bağlı araşdırma aparılır.

## Bakı-Şamaxı yolunda ağır qəza: ölən var

**Bakı-Şamaxı yolunun 69-cu kilometrliyində yol-nəqliyyat hadisəsi baş verib. Lent.az-ın Fövqəladə Hallar Nazirliyin saytına istinadən məlumatına görə, Qobustan rayonu ərazisində 1934-cü il təvəllüdlü Əsgərov Tahir Məmməd oğluna məxsus "VAZ" və "NİSSAN" markalı minik avtomobillərinin toqquşması nəticəsində yol-nəqliyyat qəzası baş verib.**

Dərhal hadisə yerinə FHN-in müvafiq xilasetmə qüvvələri cəlb olunub. Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən məlum olub ki, "VAZ" markalı minik avtomobilinin sürücüsü aldığı ağır bədən xəsarətindən hadisə yerində vəfat edib. Yanğınsöndürən-xilasedicilər T.M.Əsgərovun cəsədini deformasiyaya uğramış avtomobildən təhlükəsizlik qaydalarına riayət etməklə xüsusi alət və avadanlıqlar vasitəsi ilə çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

Faktla bağlı araşdırma başlanıb.

## Şəmkirdə avtomobilin altında qalan azyaşlı ölüb

**Şəmkirdə ölümlə nəticələnən yol qəzası baş verib. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, avqustun 28-də saat 19.00 radələrində Şəmkir rayonunun Keçili kəndi ərazisində kənd sakini Tural Dilənçizadə idarə etdiyi "Toyota" markalı avtomobil ilə həmkəndlisi, azyaşlı Lilpar Abbasovanı vurub.**

Uşaq hadisə yerində ölüb.

Şəmkir Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 217 (5926) 30 avqust 2014

**Bir sıra mətbu orqanlarda, eləcə də "Yeni Müsavat" qəzetində İsmayıllının məşhur İvanovka kəndi ilə bağlı gedən materiallar səs-küyə səbəb oldu. Eyni zamanda bəzi anlaşılmazlıqlar, kənddəki durumla bağlı dəqiq olmayan informasiyalar ortaya çıxmışdı.**
**Bundan sonra durumu şəxsən müşahidə etməyimiz üçün kənd sakinləri bizi İvanovkaya dəvət etdilər.**



# "İvanovkada hələ belə susuzluq olmayıb"

## Əməkdaşımız İsmayıllının məşhur kəndinin su problemindən yazır; yerli əhali kolxozda vəziyyətin çətinləşdiyini deyir

Minval.az saytının əməkdaşı Yanina Mədətova ilə birlikdə İsmayıllıya səfər etdik.

Azərbaycanda kolxoz sisteminin mövcud olduğu yeganə kənddə ilkin təəssürat gözəl idi. Səliqəli, standart evlər, sahmanlı həyətlər, rənglənmiş darvazalar, tullantısız küçələr adama xoş gəlirdi.

Lakin daxildə nələrin baş verdiyini öyrəndikdə vəziyyətin əhali üçün heç də ürəkaçan olmadığını anladıq.

Kənddə ilk görüşdüyümüz insanlardan biri **kolxoz sədri Nikolay Dubrovin müavini Vasiliy İvanoviç** oldu. Suallarımızı cavablandıran Vasiliy İvanoviç yayılmış şayələrə son qoymaq üçün açıqlama verdi: "Bəzi qəzetlər yazıb ki, guya biz camaata suyu pulla satırıq. Elə şey yoxdur. Kolxozun üzvü olan hər kəsə, bütün kənd sakinlərinə suyu pulsuz paylayırıq. Hamının həyətində su krantları var. Kimə də su çatmasa kolxozun maşınları ilə pulsuz paylanır. Sadəcə olaraq bu il ümumən su qıtlığı var. Dağlardan kəndə çəkilmiş su kəmərlərində su az gəlir. Təqribi deyək ki, 20 bulaqdan 10-u quruyub.

Sadəcə olaraq kimə su çatmırsa, rayonun özündən gətirib su satanlar var, onlardan alırlar. Suyu satan insanlar heç bu kəndin camaatı deyil. Bir də bizdə su alanlar kolxozun üzvü olmayanlardır. Hansı ki, onlar sonradan bu kəndə köçüb, özləri üçün ev alıblar. Amma artıq olanda onlara da pulsuz su veririk".

Bəzi mətbu orqanlarda dərc olunmuş yazılarda kənddə milli zəmində ayrı-seçkiliyin olması məsələsinə xüsusi toxunan V.İvanoviç bu kəndin 300 ildir mövcud olduğunu bildirdi. Bu illər ərzində heç vaxt ciddi problemin yaşanmadığını, əhalinin qız alıb-verərək bir-birinə qaynayıb-qarışdığını söylədi.

**Kolxoz sədrinin bizimlə görüşə bilməməsinin səbəbinə də aydınlıq gətirən nümayəndə bunları söylədi:** "Hazırda Nikolay Dubrovin yanında şəhərdən gələn müfəttişlər olduğu üçün sizinlə şəxsən görüşə bilmir. O həmin şəxsləri özü kolxoza dəvət edib ki, bəzi maliyyə məsələlərində olan problemlərə yardımçı olsunlar".

3 il əvvəl tikilmiş, lakin son 1 ildə fəaliyyət göstərən su anbarı ilə bizi əyani tanış edən V.İvanoviç bu qurğunun 2-3 kənd üçün su mənbəyi olduğunu bildirdi.

Daha sonra bizi kolxozun fermasına aparan nümayəndə inək saxlanılan bölümdə 600-ə yaxın cins heyvanın olduğunu bildirdi.

**16 ildir ki, fermanın bu hissəsində çalışdığını söyləyən Vanya adlı kolxoz işçisi inəklərin susuzluqdan pis vəziyyətdə olduğunu dedi.** Aylıq təqribən 100 manat maaş aldığını söyləyən Vanya kolxozun əvvəllər yaxşı olduğunu, indi isə çox pis vəziyyətə gəlib çıxdığını bildirdi.

Fermanın işçilərindən olan Tanya da 22 ildir kolxozda çalışdığını, ayda 60 manat məvacib aldığını söylədi. Dolanışıqlarının çox ağır olduğunu deyən kənd sakini 15 manat verib aldıqları 3 tonluq suyun cəmi 1 həftə onlara bəs etdiyini bildirdi: "Mən bu kənddə doğulub böyümüşəm, hələ belə susuzluq olmayıb. Paltarlarımızı yumağa, çimməyə su tapmırıq. Maaşımız da çox azdır. Zülm çəkirik".











Müşahidələrimiz və söhbətlərimiz zamanı gənclərin kənddən uzaqlaşdığı, bir qisminin Rusiyaya, bir qisminin də paytaxta köçdüyünün şahidi olduq.

Yaşlı kənd əhalisi isə Azərbaycanı sevdiklərini, Rusiyada yaşamaq istəmədiklərini dedilər.

Sergey adlı kənd sakini isə son dövrlər cəbhə xəttində atəşkəsin pozulduğu zaman ciddi həyəcan keçirdiklərini də dedi.

Nəzərinizə çatdıraq ki, bu kənddən bir nəfər Qarabağ döyüşlərində həlak olub, bir nəfər isə Qarabağ veteranıdır.

Kənd sakinlərindən 1 qismi də mətbuatda çıxmış yazılardan narahat olduqlarını, xüsusən də heç bir milli-dini ayrı-seçkiliyin olmadığını söylədi. Bizimlə söhbət edən yerli sakinlərdən biri isə dedi: "İstər bizdən, istər sizdən narazı olanlar var. Elə lap Brejniyevin dövründən bu cür olub".

**Kənd sakini Şərafəddin Babayev isə burada doğulub-böyüdüyünü və heç vaxt ayrı-seçkiliyə, ədavətə rast gəlmədiyini bildirdi.** Kolxozda sürücü işləyən Ş.Babayev əvvəlki illərdə kolxozda 8 briqada çalışdığını, onların hər birinin nəzdində 40-50 işçinin olduğunu söylədi. Hazırda o briqadalarda 4-5 nəfər işçinin qaldığını deyən Ş.Babayev kolxozun zəifləməsindən təəssüfləndiyini bildirdi.

Kənddə olduğumuz zaman ümimi mənzərə onu ifadə edirdi ki, insanların ciddi susuzluq və dolanışıq problemləri var. Hər şeyə rəğmən ümidləri üzülməyən insanlar isə kolxoz sisteminin gücləndirilməsi üçün tədbirlər görülməsinin tərəfdarıdırlar.

Yekudna qeyd edək ki, təbiət anomaliyası olan susuzluq problemi bu il bir çox rayonlarda müşahidə olunub.

**Biz özümüz də Bakıdan İsmayıllıya qədər getdiyimiz yolda bol sulu bir çay belə müşahidə etmədik.**

❑ **Fəridə ABDIYEVA**



# Vüsal Şilderin anası sensasiyalı müraciət yaydı

## "Azərbaycanda oğlumun qətli ilə bağlı heç bir işdə, qurulan teatrlara bənzəyən məhkəmələrdə dekorasiya olmaq istəmirəm"

**Qətlə yetirilmiş Vüsal Şilderin anası Mətanət Şilderin sensasion müraciəti yayılıb. Müraciətin mətnini vəkil Aslan İsmayılov facebook səhifəsində paylaşıb.**

M.Şilder onun qətlə yetirilən oğlunun işinə baxan Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Rasim Sadıqova ünvanlanan müraciətində yazır:

- Mən, Mətanət Şilder mükəmməl mədəniyyətə, tərbiyəyə, savada, gözəl zahiri görünüşə malik, həyatının çiçəklənən anında amansızcasına qətlə yetirilmiş 20 yaşlı Vüsalın anasıyam. Bütün həyat arzularımı Vüsalla bağlamışdım. Həyat yoldaşımla Almaniyaya köçdüm. Bütün imkanlara baxmayaraq nə özüm, nə də oğlum Vüsal Avropada yaşamaq istəmədik. 3 illik həsrətdən sonra ailəliklə daim yaşayış üçün Azərbaycana köçdük. Hava limanından çıxdıqda ilk etdiyim hərəkət torpaq axtarmaq oldu ki, onu gözümə sürtüm. Elə də etdim.

Oğlum Vüsal mükəmməl təhsil alıb, böyük biznes işləri qurub daim Azərbaycanda yaşayıb Vətəninə fayda vermək barədə düşünürdü. Saf, təmənnasız, qarşılıqlı məhəbbətinə görə onu uzun müddət təqib etdilər, başına olmazın müsibətlərini gətirdilər və sonda amansızcasına, namərdcəsinə qətlə yetirdilər. Bu müddət ərzində yalnız oğlumu qətlə yetirənlərin, sifariş verənlərin cəzalandırılmasına çalışdım. Yalnız oğlumun qanı batmasın deyə çalışdığıma görə çox müsibətlər yaşadım, yenə yolumdan dönmədim. Bu vaxtlar qatillər öz əxlaqlarına uyğun oğlumun qanı üçün "istədiyin pulu al, bu işdən əl çək" dedilər, qəbul etmədim. Ölənə qədər də oğlumun qatillərinin cəzalandırılmasını həm cavabdeh şəxslərdən tələb edəcəm, həm də hər şeyə qadir Uca Allahdan xahiş edəcəm.

Saf, yüksək mədəniyyətli, təhsilli, insanları sevən, daim onlara yaxşılıq etmək istəyən, mənim yeganə qürur mənbəyim olan oğlum Vüsalı əlimdən alan, qatillərinin kef çəkməsinə şərait yaradan Azərbaycan adlı Vətənə nifrət etmək istəyirəm, ancaq bacarmıram, çünki Vüsal bu Vətəni həddindən artıq çox sevirdi. Bu müsibətlər dövrü tanımadığım, mənim faciəmə şərik çıxan, mənə dəstək olan hər bir insana təşəkkür edirəm. Uca Allah hamınızın balalarınızı qorusun deyirəm.

Bu müddət ərzində mənə vəkillik etmiş, peşəsinə sadiq, vicdanlı, heç bir təhdiddən qorxmayan, nəfsi tox, bir Azərbaycanlı Kişisi kimi mənə doğma qardaş münasibəti bəsləyən vəkil Aslan İsmayılova xüsusi təşəkkürmü bildirirəm.

Məni almana ərə getməkdə suçlamaq istəyənlərə isə bildirirəm, bu müddət ərzində, oğlumun qanını batıran çox nakişilərdən fərqli olaraq həyat yoldaşım Adolf Şilder mənim oğluma əsl ata oldu, onu oğulluğa götürdü, onun Almaniya vətəndaşlığı almasına nail oldu, onu doğması kimi sevdi, ən yüksək təhsil almasına çalışdı, baş vermiş faciəni məni qədər bölüşdü, heç nədən, heç kimdən çəkinmədən mənim namusuma sahib çıxdı və bu gün də mənimlə birlikdə Vüsalın qatillərinin cəzalandırılmasına çalışır.

Vüsalın qətli ilə bağlı aparılan cinayət işində gördüklərim qanunsuzluqlar, özbaşınalıqlar, vicdansızlıqlar mənə göstərdi ki, bu işin ədalətli, qanuni araşdırılmasına cavabdeh olan şəxslər nəinki qanundan, heç Uca Allahdan da qorxmurlar. Ona görə də bundan sonra Azərbaycanda oğlumun qətli ilə bağlı heç bir işdə, qurulan teatrlara bənzəyən məhkəmələrdə dekorasiya olmaq istəmirəm. Bu faciə teatrında heç bir rolda çıxış etmək istəmirəm. Sadəcə, bu saxta məhkəmələrdə baş verən oyunlara, kinayə baxışlara dözə bilmərəm. Ömrümün sonunacan günahkarların cəzalandırılmasına çalışacam. Ancaq bundan sonra rahat oğlumun yanına köçə bilərəm.

Dediklərimlə bağlı bildirirəm ki, oğlumun qətli ilə bağlı bu işin arxasında dayananların hansı murdarlıqlara qadir olduqlarını bildiyimdən, Aslan İsmayılova olan təhdid və təhlükələrdən qorumaq üçün onunla həyat yoldaşım Adolf Şilderlə bağladığımız müqaviləni pozuram və bu gündən sonra heç kim bizim adımızdan bu işlə bağlı hansısa fikir bildirə bilməz.

Mən bir Ana kimi vicdanımı, namusumu göstərdim və mübarizəmi davam edəcəm, qoy bundan sonra bu işin ədalətli araşdırılmasına cavabdeh olan kişilər öz kişiliklərini, namuslarını göstərsinlər, bəlkə onda Uca Allah onları əfv edə.

Hörmətlə,
Mətanət Şilder
29 avqust 2014-cü il

❑ **M.MAHRIZLI**

YENİ MÜSAVAT
# Son səhifə
N 217 (5926) 30 avqust 2014



## Kondisionerlərin zərərləri

Yay və qış aylarında vərdiş etdiyimiz kondisionerlərin ziyanı, son dəmə, xeyrindən heç də az deyilmiş. Söhbət onlardan düzgün istifadə etmədikdə yaranan fəsadlardan gedir. Mütəxəssislər müəyyən edib ki, o halda mikroorqanizmlər yuxarı tənəffüs yollarında, ağciyərlərdə bir sıra ağır fəsadlara, hətta sətəlcəmə gətirə bilər. O da qeyd edilir ki, təmizlənməyən kondisionerlərdən istifadə zamanı allergik soyuqdəymə, astma kimi xəstəliklərin sayı artır.

Böyük iş yerlərində yaz-yay aylarında kondisionerdən səhv istifadə nəticəsində iş itkisi də yaşanır. Yaxşı təmizlənməyən kondisionerlərdə ortaya çıxan "Legionella pneumophilia" bakteriyası sətəlcəmə gətirir. Eyni zamanda kondisionerin yaratdığı hərarətlə çöldəki istiliyin kəskin fərqlənməsi nəticəsində (fərq 7-8 dərəcədən artıq olmamalıdır) əzələ tutulmaları, üz iflici (parez) və ağrılar meydana gələ bilər. Kondisionerlərin mənbə olduğu "Legionella" mikrobu təbiətdə, su qaynaqları içərisində və nəmli mühitlərdə mövcuddur. Təbiətdən binaların su sistemləri içərisinə adlayan mikrob müvafiq mühitdə çoxalır və su zərrəcikləri ilə insanların ağ ciyərlərinə daxil olaraq sətəlcəmə səbəb ola bilir. Bu cür hava ilə mütəmadi nəfəs alan adamda 2-10 gün arasında qızdırma, halsızlıq, əzələ ağrıları, iştahasızlıq, baş ağrısı kimi əlamətlər ortaya çıxır. Ancaq əksəriyyətində ilk diqqətçəkən əlamət öskürəkdir.

# Məşhur pianoçunun fillə dueti

Bu qəribə hadisə Taylandın Ayutthaya şəhərindəki zooparkda baş verib. Tanınmış pianoçu Paul Barton Peter adlı fillə birgə fleyta çalıb. Cütlük həmçinin rəqs edib və insanlarla zarafat edərək əyləniblər. Məşhur pianoçunun istedadlı fil ilə sərgilədiyi tamaşa ətrafda hər kəsi heyrətləndirib. Görüntülər sosial şəbəkələrdə də insanların böyük marağına səbəb olub.



# iPhone 6-nın göstəriləcəyi gün bilindi

**"Apple" şirkəti sentyabrın 9-da keçiriləcək tədbirə jurnalistləri dəvət edib. Tədbirdə yeni nəsil iPhone smartfonlarının təqdim ediləcəyi gözlənilir. Bu haqda ağ-boz tonda tərtib edilmiş dəvətnamədə yazılıb. Tədbir Kupertino şəhərində, Bakı vaxtı ilə saat 22:00-da baş tutacaq.**

Milli.az ICTnews-a istinadən bildirir ki, tədbirdə iki yeni iPhone smartfonu (4.7 və 5.5 dyümlük diaqonala malik ekran) nümayiş etdiriləcək. Şayiələrə görə, qurğuların ekranı sapfir şüşədən hazırlanacaq, yeni smartfonların arxa panelində "Apple"ın işıqsaçan loqosunun olacağı, həmçinin qurğunun NFC modulu ilə təchiz ediləcəyi deyilir.






## Ebolaya görə salamlaşmaq qadağan edildi

Demokratik Konqo Cümhuriyyətində ölümcül Ebola xəstəliyinin izlərinə rast gəlindiyi gündən bəri əllə salamlaşmaq qadağan edilib. Yeni qəbul edilən qanun yüksək vəzifəli şəxslərə və Senat üzvlərinə də aid edilib. Bazar günü ölkədə bu xəstəliyin daşıyıcılarına rast gəlindiyi üçün xəstəliyin yayılmasının qarşısının alınması üçün belə bir addımın atıldığı bildirilir. DKC-nu Ekvator bölgəsində yaşayan 4 nəfərin məhz bu xəstəlikdən öldüyü açıqlanıb. Ölümcül virus Afrikada 1500 nəfərin öz həyatını itirməsinə səbəb olub.




QOÇ - Saat 14-ə qədər ümumi əhvalınız aşağı səviyyədə olsa da, sonrakı müddətdə vəziyyət xeyrinizə olacaq. Boş və mənasız şeylərə görə çılğınlıq etməyin. Təmkinli olmağa çalışın.

BUĞA - Yalnız şəxsi büdcənizi artırmaq istiqamətində müəyyən uğurlara yiyələnə bilərsiniz. Qalan məsələlərdə isə risk etməyə dəyməz. Axşamüstü sövdələşmələrə getsəniz, aldanacaqsınız.

ƏKİZLƏR - Maraqlı görüşlər yolunuzu gözləyir. Gələn ay atacağınız mühüm addımları reallaşdırmaq üçün bu gündən maksimum bəhrələnməlisiniz. Sevgi məsələlərində daha səmimi olun.

XƏRÇƏNG - Şəxsi büdcənizdə müəyyən çətinlikləriniz olsa da, gün ərzində rastlaşdığınız hadisələr əhval-ruhiyyənizi yüksəldəcək. Çalışın ki, qətiyyətsiz hərəkətlərinizə son qoyasınız.

ŞİR - Astroloji göstəricilər bu təqvimin sizin üçün o qədər də rahat keçməyəcəyini bəyan edir. Səhhətinizlə bağlı problemlər və bəzi cəhdlərinizin boşa çıxma ehtimalı var.

QIZ - Ulduzların düzümü şəxsi büdcənizdə artım olacağını bəyan edir. Bu istiqamətdə bütün səylərinizi birləşdirməlisiniz. Nahardan sonra isə səhhətinizi qorumalısınız.

TƏRƏZİ - Sinoptiklərlə heç də həmişə razılaşmayan ulduzlar bu təqvimin sərin keçəcəyini bəyan edir. Odur ki, planlarınızı təxirə salmayın. Əsas enerjinizi istirahətə və sevgiyə yönəldin.

ƏQRƏB - Durumunuzdan bəlli olur ki, məqsədlərinizi reallaşdırmaqda sizə qarşı maneələr çoxdur. Amma narahat olmağa dəyməz. Çünki enerji və gücünüz sizi qələbəyə yaxınlaşdıracaq.

OXATAN - İşgüzar danışıqlarda iştirak etmək üçün sərfəli vaxtdır. Bütün müsahibləriniz sizinlə razılaşacaq. Amma gərək siz də reallıqdan yararlanasınız. Kimisə aldatmaq fikrinə düşməyin.

OĞLAQ - Təəssüf ki, Göy qübbəsi gərgin bir gün yaşamaq ehtimalınızdan xəbər verir. Bu amili nəzərə alıb hər addımda ayıq-sayıqlığınızı artırmalısınız. Haqlı olsanız da, mübahisələrə girişməyin.

SUTÖKƏN - Ümumi mənzərə bir qədər passivdir, daha doğrusu öhdəlikləriniz enerjinizdən çox olacaq. Ünsiyyətdə olduğunuz insanlarla mübahisələr, o cümlədən işlə bağlı uğursuzluqlar sizi yora bilər. Bir az dincəlin.

BALIQLAR - Əgər uzaq səfərə çıxmaq planınız varsa, onu təxirə salmayın. Maliyyə çətinliyiniz olsa belə, borc götürüb yola çıxın. Çünki bu addımı atmaqla, gələcək uğurlarınıza təkan verəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 6,35 kiloluq oğlan uşağı doğuldu



Çində "balaca nəhəng" dünyaya gəlib. Belə ki, Şansi vilayətinin Yeçen şəhərindəki doğum evlərindən birində çəkisi 6,35 kilo olan oğlan doğulub. Milli.az AsiaOne-a istinadən bildirir ki, "Hongji" doğum evinə aparılmış Tyan Nenşa adlı 26 yaşlı qadının oğlunun adı "Ginnesin rekordlar kitabı"na düşəcək. Çünki o, doğuş zamanı müdaxilə olmadan dünyaya gəlmiş ən böyük, ən ağır uşaqdır. Bu balaca oğlanın çəkisi və boyu 3 aylıq uşağa bərabərdir. Doğum evinin həkimləri bildiriblər ki, uşağı görəndə şoka düşüblər.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565